**ADA UNİVERSİTETİ**

**TƏHSİL FAKÜLTƏSİ**

**TƏHSİL ÜZRƏ MENECMENT**

# Pedaqoji fakültələrdə təhsil alan kişi tələbələrin müəllimlik peşəsi ilə bağlı planları

Magistr dissertasiyası

**Tələbə: Ramiz Nəsirov**

**Elmi rəhbər: Dr. Ülkər Babayeva**

**Bakı 2024**

**ADA UNİVERSİTETİ**

**MAGİSTR DİSSERTASİYASI**

Ramiz Nəsirov

Elmi rəhbər: Dr Ülkər Babayeva __________________

Kommisiya üzvü: Dr Rza Məmmədov __________________

Kommisiya üzvü: Dr Anar Vəliyev __________________

Təhsil fakültəsi dekanı: Dr Ülviyyə Mikayılova __________________

18.10.2024

# HƏQİQİLİK BƏYANATI

Mən ADA Universitetinin plagiat siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, bu dissertasiyanın məzmunu (Pedaqoji fakültələrdə təhsil alan kişi tələbələrin müəllimlik peşəsi ilə bağlı planları) mənim şəxsi işimdir və heç bir təsdiq olunmamış işi ehtiva etmir.

İmza: ____________

Tarix: ___________

**Minnətdarlıq**

İlk öncə, elmi rəhbərim Dr. Ülkər Babayevaya bu dissertasiyanı yazarkən mənə daimi dəstəyi və köməyinə görə sonsuz təşəkkürlüyümü bildirirəm. Onun təcrübəsi, anlayışı və rəyi tədqiqat işimin formalaşmasında mühüm rol oynadı.

Kurs boyunca, dissertasiya işimi yazmaq üçün mənə yeni biliklər öyrədən, dəyərli fikir və məsləhətləri üçün kurs müəllimim Dr. Könül Abaslıya, çox təşəkkür edirəm.

Magistratura təhsilim boyunca məni daim dəstəkləyən ailəmə dərin təşəkkürlüyümü bildirirəm. Onların sevgisi, anlayışı və səbri mənim üçün daimi motivasiya mənbəyi olub.

Nəhayət, akademik məqsədlərimi həyata keçirmək üçün, mənə resurslar və imkanlar təqdim etdiklərinə görə, ADA universitetinin əməkdaşlarına, professor-müəllim heyətinə, xüsusilə də Təhsil Fakültəsinin dekanı Dr. Ülviyyə Mikayılovaya iki illik təhsilim boyunca bütün suallarımı cavablandırdığı və dəyərli məsləhətləri üçün minnətdarlığımı bildirmək istəyirəm.

**Xülasə**

Bu dissertasiya pedaqoji fakültələrdə təhsil alan kişi tələbələrin peşə seçimlərinə təsir edən amilləri araşdırır, onların müəllim peşəsinə münasibəti, karyera gözləntiləri və gələcək pedaqoq kimi öz rollarına inamlarına diqqət yetirir. Bu tədqiqatın əsas məqsədi müəllim təhsilində əsas çətinlikləri və imkanları vurğulayaraq, bu tələbələrin karyera yollarını formalaşdıran əsas motivasiyaları və qavrayışları təhlil etməkdir. Tədqiqat kişilərin müəllimlik peşəsində təmsil olunmasının nisbətən aşağı olduğu Azərbaycan təhsil sisteminin kontekstinə əsaslanır. Dissertasiyanın əhatə dairəsi kişi tələbələrin müəllimlik karyerası ilə bağlı qərarlarına təsir edən sosial, iqtisadi və mədəni amillərin ətraflı təhlilindən ibarətdir.

Təhsilin son ilində 338 kişi tələbəyə paylanmış sorğudan istifadə etməklə kəmiyyət metodologiyasından istifadə edilmişdir. Sorğu onların peşəkar istəklərinin müxtəlif aspektlərini, müəllimlik peşəsi haqqında təsəvvürlərini və bu sahəyə daxil olmaq üçün potensial maneələri əhatə edib. Əsas nəticələr göstərir ki, respondentlərin bir çoxu seçdikləri peşə ilə fəxr etdiklərini bildirsələr də, əhəmiyyətli bir qismi də karyera yüksəlişi və maliyyə sabitliyi baxımından müəllim peşəsini məhdud hesab edir. Bununla belə, bir çox tələbələri tədrisin sosial aktuallığı və gələcək nəsillərə töhfə vermək imkanı motivasiya edirdi.

Nəticələrin təfsiri onu deməyə əsas verir ki, daha yaxşı karyera imkanları və daha yüksək maaşlar kimi sistemli təkmilləşdirmələr daha çox kişi tələbələri müəllimlik peşəsinə cəlb edə bilər. Nəticələr qlobal tendensiyalara uyğundur, eyni zamanda Azərbaycanda kişi müəllimlərin üzləşdiyi unikal sosial-mədəni çağırışları vurğulayır.

**Açar sözlər:** Peşə seçimi, gender, karyera, peşə motivasiyası

**Abstrakt**

This dissertation explores the factors influencing the career choices of male students in pedagogical universities, focusing on their attitudes towards the teaching profession, career expectations, and self-confidence in their roles as future educators. The primary aim of this research is to analyze the underlying motivations and perceptions that shape the career paths of these students, highlighting key challenges and opportunities in teacher education. The study is grounded in the context of Azerbaijan's education system, where male representation in the teaching profession is comparatively low. The scope of the dissertation includes a detailed analysis of the social, economic, and cultural factors that affect male students' decision to pursue a teaching career.

A quantitative methodology was employed, using a survey distributed to 338 male students in their final year of study at pedagogical faculties. The survey covered various aspects of their professional aspirations, perceptions of the teaching profession, and potential barriers to entering the field. The key findings reveal that while many respondents expressed pride in their chosen profession, a significant number also viewed the teaching profession as limited in terms of career growth and financial stability. Nonetheless, many students were motivated by the social significance of teaching and the opportunity to contribute to future generations.

Interpretation of the results suggests that systemic improvements, such as better career development opportunities and higher wages, could attract more male students to the teaching profession. The findings align with global trends but also highlight unique socio-cultural challenges faced by male teachers in Azerbaijan.

**Key words:** Choice of profession, gender, career, professional motivation.

# Mündəricat

**Giriş** ........ 2
Müəllimlər rol-model kimi ........ 3
Əsas anlayışların izahı ........ 6
Müəllim peşəsinin feministləşməsi ........ 7
Tədqiqatın əhəmiyyəti ........ 10
Tədqiqatın məqsədi ........ 10
**Ədəbiyyat icmalı** ........ 12
Gərgin fəaliyyət ........ 15
Cəmiyyətdə kişi müəllimlərə qarşı münasibət ........ 18
Təhsilin çevikliyini tələb edən daimi dəyişikliklər ........ 21
Əmək haqqı və müəllim peşəsinin prestiji ........ 24
Müəllim peşəsinin seçimi ........ 26
**Tədqiqat metodologiyası** ........ 29
**Respondentlər haqqında məlumat** ........ 33
**Nəticələr** ........ 43
Müəllim peşəsinə münasibət ........ 45
Müəllimlik karyerası ilə bağlı gözləntilər ........ 51
Müəllim peşəsi ilə bağlı özünə inam ........ 58
**Nəticələr və müzakirə** ........ 63
Ümumi baxış ........ 63
Məlumatların təhlili və şərhi ........ 64
Yekun müddəalar və təkliflər ........ 74
**Nəticə** ........ 80
**Ədəbiyyat** ........ 81
**Qoşmalar** ........ 86
Qoşma 1. Anket ........ 86
Qoşma 2. Ölçmə alətinin istifadəsi üçün razılıq məktubu ........ 88

## Giriş

Bütün dünya ölkələri öz vətəndaşlarına ixtisaslı, innovativ və akademik təhsil verməyə çalışırlar. Təhsil sistemlərində keyfiyyətli təhsilin ən fundamental dəyişənlərindən biri, şübhəsiz ki, müəllimlərdir və ixtisaslı müəllimlərə tələbat günü-gündən artır. Müəllimlik peşəsi cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişikliklər nəticəsində yaranmışdır (Hotaman, 2020). Bu fikir müxtəlif sosial-iqtisadi çağırışlara və ehtiyaclara cavab olaraq inkişaf edən müəllim peşəsinin mürəkkəb və çoxşaxəli xarakterini əks etdirir. İlk konteks tarixi kontekstdir. Misir, Yunanıstan və Roma kimi qədim cəmiyyətlərdə müəllimlik peşəsinin yaranması bilik və bacarıqların nəsildən-nəslə ötürülməsi zərurəti ilə əlaqələndirilirdi. Bu cəmiyyətlərdə müəllimlər elitanın yetişdirilməsində və gələcək liderlərin hazırlanmasında əsas rol oynayırdılar. Orta əsrlərdə mədrəsələr, monastırların və universitetlərin inkişafı ilə müəllimlik peşəsi rəsmiləşdi. Mədrəsə və monastırlar öyrənmə mərkəzləri, mollalar, rahiblər və kahinlər ilk müəllimlər oldular. Sənaye İnqilabının gəlişi ilə işçi qüvvəsini yeni iqtisadi sistemə hazırlamaq üçün kütləvi təhsilə ehtiyac yarandı. Bu, dövlət məktəblərinin yaranmasına və müəllimlik peşəsinin kütləvi bir hadisə kimi meydana çıxmasına səbəb oldu. İkinci konteks sosial-iqtisadi dəyişiklərlə əlaqəli idi. Əhalinin kənd yerlərindən şəhərlərə köçürülməsi yeni şəhərləşmiş ərazilərdə təhsil müəssisələrinin yaradılmasını zəruri edirdi. İqtisadi artım və yeni texnologiyaların inkişafı təhsilli əhalidən bu texnologiyaları idarə etməyi və iqtisadi tərəqqini qorumağı tələb edirdi. Demokratik ideallarıın inkişafı çoxlu sayda ixtisaslı müəllim tələb edən universal təhsil sistemlərinin yaradılmasına kömək etdi (Darling-Hammond, 2006). Göründüyü kimi, bəşər tarixi bütün dövrlərdə inkişaf etmiş, bu inkişafı təmin edən qüvvə isə təhsil və müəllim olmuşdur. Müəllimlər öz şagirdlərinin potensial qabiliyyəti və bacarıqlarını üzə çıxarmaqla inkişafa və tərəqqiyə diqqət yetirirlər, şagirdlərini öyrənməyə təşviq edir və onlar üçün nümunə olmağa çalışırlar (Erginer & Saklan, 2020).

Bloom, Vygotsky, Piaget, Gardner nəzəriyyələri fonunda müəllimlər hər bir şagirdin güclü və zəif tərəflərini müəyyən etməyə çalışır, onların potensialını maksimum dərəcədə artırmaq üçün tədris metodlarını uyğunlaşdırır, onların unikal təhsil ehtiyaclarını ödəmək üçün müxtəlif texnika və strategiyalardan istifadə edirlər. Müəllimlər şagirdləri öyrənməyə və inkişaf etdirməyə həvəsləndirən stimullaşdırıcı öyrənmə mühiti yaradırlar. Şübhəsizdir ki, bir çox insanlar təhsil aldıqları müddətdə, onlara dərs deyən müəllimləri təqlid etmişlər. Peşəkar müəllim təhsilalanlar üçün dəyişiklik bələdçisidir (Muhammadiah vd, 2022). Müəllimliyi peşə kimi seçənlər öz fənni üzrə biliklərə, pedaqoji bacarıq və qabiliyyətə və peşə ilə bağlı şəxsi keyfiyyətlərə malik olmalıdırlar (Hotaman, 2020). Müəllimlər təkcə akademik bilikləri öyrətmir, həm də cəmiyyətdə yaşamaq üçün zəruri olan sosial və mənəvi dəyərləri təbliğ edirlər. Yuxarıda qeyd edilən fikirlər müəllim peşəsinin çoxölçülü xarakterini əks etdirir. Müəllimlər təkcə bilik ötürmür, həm də dəyişikliyin icraçılarıdırlar, yeni yanaşmalar və texnologiyalar tətbiq edirlər, tənqidi düşüncəni və sosial bacarıqları inkişaf etdirirlər. Bu rolu yerinə yetirmək üçün onlar öz fənnləri, tədris bacarıqları və effektiv öyrənmə və şagird inkişafını dəstəkləyən mühüm şəxsi keyfiyyətlərə dair dərin biliyə malik olmalıdırlar. (Darling-Hammond, 2006).

**Müəllimlər rol-model kimi.**

Müəllimlərin funksiyaları yalnız təhsilalanların bilik və bacarıqlarını artırmaqla məhdudlaşmır. Onlar həm də şagirdlər üçün bir nümunədir. Müəllimin fəaliyyəti, metodikası, idarəetmə təcrübəsi, mənəvi dəyərləri və insanlara qarşı münasibəti ilə şagirdlərə öyrənmə prosesində daha geniş bir baxış bucağı verir. Müəllimlər təhsil məqsədlərinin gücləndirilməsində mühüm rol oynayırlar. Bu məqsədlər təhsil, davranış, inkişaf, qiymətləndirmə və məsuliyyətlə bağlıdır. Müəllimlər təhsilalanların təhsil və öyrənmə prosesində baş məşqçi, bələdçi və ya nümunə rolunu oynayırlar. Müəllimlərin davranışı, şagirdlər üçün nümunə olaraq qəbul edilir. Onların səmimiyyəti, hörməti,

ədaləti, vəzifə və məşğuliyyəti təhsilalanlar üçün vacibdir. Müəllimlərin öz davranışları ilə göstərdiyi səmimiyyət və ədalət, şagirdlər arasında münasibətlərə də təsir edir. Müəllimlər öz səviyyəsini və məsləhətlərini yeni nəslin inkişafında tətbiq edirlər. Onların təhsilalanlara verdiyi dəstək, həyata hazırlanması baxımından çox vacibdir. Müəllimlər, öz nümunələrində şagirdləri ilhamlandırmaq və onları inkişaf etdirmək üçün səy göstərirlər. Bütün bunlarla yanaşı müəllimlər təhsilalanlara yüksək standartlara əsaslanan etik və məsuliyyətli davranışlar nümayiş etdirməyi öyrədir. Fairmana (2015) görə, müəllimlər qeyri-rəsmi əməkdaşlıq və əlaqələrin qurulması yolu ilə məktəbləri yaxşılaşdırmaq üçün səylərə rəhbərlik edən dəyişiklik agentləri kimi çıxış edirlər. Müəllimlərin rol-model olaraq əhəmiyyətindən danışarkən, kişi müəllimlərin fəaliyyətinə də nəzər salmağın vacibliyini heç kim inkar etmir. Kişi rol-modeli müəllimlikdə cinsinə görə məktəblərdə oğlanlara təsiri haqqında ümumiləşdirilə bilən ifadələri dəstəkləmək üçün istifadə olunmağa davam edən konseptual çərçivədir (Rezai-Rashti & Martino, 2010). Connell (2005) kimi müəlliflərə görə, oğlanlarda müsbət kişi şəxsiyyətinin formalaşmasında kişi rol modelləri əsas rol oynaya bilər. Onlar hörmət, əməkdaşlıq və emosional savadlılıq daxil olmaqla, kişiliyin alternativ formalarını nümayiş etdirə bilərlər. Kişi müəllimlərin olması gender bərabərliyinin yaradılması üçün vacib olan məktəblərdə gender rollarının daha balanslı təmsil olunmasına töhfə verə bilər. Kişilərin rol modelləri faydalı ola bilsə də, bütün oğlanların mütləq kişi müəllimlərə ehtiyacı olduğunu və ya kişi müəllimlərin oğlanları başa düşməkdə avtomatik olaraq daha yaxşı olduğunu güman edən ümumiləşdirmələrdən qaçınmaq vacibdir. Skelton (2003) kişi rol modellərinə ehtiyac olduğunu iddia edərkən gender stereotiplərinin davam etdirilməsi riski barədə xəbərdarlıq edir. Fərqli uşaqların müxtəlif ehtiyacları ola biləcəyini və keyfiyyətli təhsilin cinsindən asılı olmayaraq pedaqoqlar arasında müxtəlifliyi və inklüzivliyi tələb etdiyini qəbul etmək vacibdir. Rezai-Rashti və Martino (2010) məktəblərdə kişi rol modellərinin oğlanlara təsirinin mürəkkəb

və çoxqatlı xarakterini vurğulayır. Kişi müəllimlər mühüm rol modelləri təqdim edə və gender bərabərliyini təşviq edə bilər, lakin stereotipləşdirmə və ümumiləşdirmə ifadələrindən qaçınmaq lazımdır. Keyfiyyətli təhsil təhsilalanların fərdi fərqlərinin və müəllimlər arasında müxtəlifliyin tanınması və hörmət edilməsini tələb edir ki, bu da daha inklüziv və dəstəkləyici öyrənmə mühitinə töhfə verir. Moosa və Bhana (2019) kişi müəllimlərin qızlar üçün örnək olmaq potensialını araşdıraraq, xüsusilə gender normalarının formalaşdırılmasında və alternativ xüsusiyyətlərin təmin edilməsində bu mübahisəni genişləndirir. Kişi müəllimlər qızlara gender rollarının ciddi şəkildə müəyyən edilmədiyini və onların geniş xüsusiyyətlərə və bacarıqlara malik ola biləcəyini başa düşməyə kömək edə bilər. Hegemon kişilik nəzəriyyəsi (Connell, 2005) göstərir ki, kişi müəllimlər qızları bərabərlik və əməkdaşlığa əsaslanan alternativ kişilik modellərinə məruz qoya bilərlər. Kişi müəllimlər qızların inkişafı üçün faydalı ola biləcək qayğıkeşlik, empatiya və emosional ifadəlilik kimi ənənəvi gender stereotiplərinə uyğun olmayan xüsusiyyətlər nümayiş etdirə bilərlər. Kişi müəllimlər gender bərabərliyinin və müxtəlifliyə hörmətin əsas dəyərlər olduğu öyrənmə mühitinin yaradılmasına kömək edə bilər. Tədqiqatlar göstərir ki, gender bərabərliyini fəal şəkildə dəstəkləyən müəllimlər şagirdlərin gender rolları haqqında təsəvvürlərinə əhəmiyyətli təsir göstərir. (Browne, 2004, Liu, C.-C. vd. 2015). Qızları öz məqsədlərinə çatmaq üçün dəstəkləyən və həvəsləndirən kişi müəllimlərin olması onların özünə hörmət və ambisiyalarına müsbət təsir göstərə bilir. Gözləntilər və dəyərlər nəzəriyyəsinə (Enemark, 2007) görə, müəllim dəstəyi qızların akademik və karyera ambisiyalarına əhəmiyyətli dərəcədə təsir edə bilər. Kişi müəllimlərin qızları dəstəkləməkdə fəal iştirak etdiyi məktəblər çox vaxt liderlik rollarının və akademik nailiyyətlərin təhsilalanlar arasında daha bərabər paylandığını görürlər. Rezai-Rashti və Martinonun tədqiqatı (2010) göstərdi ki, kişi müəllimlər gender stereotiplərinə meydan oxumaqda və qızları STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) kimi ənənəvi

olaraq kişilərin üstünlük təşkil etdiyi sahələrdə nailiyyət əldə etməyə təşviq etməkdə mühüm rol oynaya bilər. Kişi müəllimlərin rol-model olaraq kəsb etdiyi əhəmiyyət, onların cəmiyyətdə formalaşdırdığı imic və şəxsiyyətləri, təhsil prosesində maraqlı və təsirli bir nümunədir. Müəllim dərs zamanı sadəcə bilik və bacarıqlarını ötürməklə qalmır, həm də şagirdlər üçün bir nümunə və tərəqqi mənbəyi kimi fəaliyyət göstərir.

**Əsas anlayışların izahı**

Latın, German, Slavyan və bir çox digər dillərdən fərqli olaraq Azərbaycan dilində cinsi mənsubiyyət, dilin cinsə görə təsnifatı, cinsə əsaslanan dil formaları və ifadələr mövcud deyil. Bu tədqiqatda kişi müəllim və ya qadın müəllim ifadələri işlədilərkən diqqət müəllimlərin bioloji olaraq cinsinə deyil, cəmiyyətin bir ünsürü olan sosial varlıq kimi, gender olaraq nəzərdə tutulur.

Feministləşmə qadınların əvvəllər kişilərin üstünlük təşkil etdiyi bir qrupa və ya peşəyə daxil edilməsi, zaman keçdikcə qadınların kişilərə nisbətdə sayının üstünlük qazanmasıdır (Patrick, 2009). Feminizasiyanın tarixi zamanla qadınların cəmiyyətdəki rolunu və statusunu dəyişdirən çoxlu hadisələr, proseslər və hərəkatları əhatə edir. Keçmişdə tibb, hüquq və mühəndislik kimi bir çox peşələr faktiki olaraq kişilərin inhisarında idi. Qadın hüquqları hərəkatı və gender bərabərliyi kimi sosial və mədəni dəyişikliklər bu sahələrdə qadınların sayının artmasına səbəb olmuşdur. Feminizasiya tarixinin başlanğıcı çox vaxt feminizm kimi tanınan qadın hüquqları hərəkatı ilə əlaqələndirilir. Feminist hərəkat 19-cu əsrdə Avropa və Şimali Amerikada bərabər hüquqlar, o cümlədən səsvermə hüququ, təhsil hüququ, əmək bazarında bərabər imkanlar və digər aspektlər tələbləri ilə başladı. Uzun müddət qadınlar seçmək və siyasi həyatda iştirak etmək hüququndan məhrum ediliblər. Feministlər öz siyasi rollarının, səsvermə və vəzifə tutmaq hüququnun tanınması üçün mübarizə aparırdılar. Feminist hərəkat həmçinin əmək bazarında qadınlar üçün bərabər imkanların, o cümlədən ali təhsilə çıxışın, bərabər iş

üçün bərabər ödənişin, karyera yüksəlişi və peşəkar inkişaf hüququnun müdafiəsi ilə çıxış edirdi. Feminizasiya həmçinin qadınların cəmiyyətdəki rolları ilə bağlı stereotiplərin və fikirlərin dəyişməsinə, həyatın müxtəlif sahələrində, o cümlədən elm, siyasət, incəsənət və biznes sahələrində qadınlar üçün yeni imkanların açılmasına öz töhfəsini verib. Qadınların təhsil və peşəkar təlim imkanları peşələrin feminizasiyasında əsas amillərdən biri olmuşdur (Kelly, 2016).

Patrick (2009) həm müsbət, həm də mənfi cəhətləri olan mühüm sosial prosesi vurğulayır. Bir tərəfdən, feminizasiya gender bərabərliyini və stereotiplərin məhv edilməsini təşviq edir, digər tərəfdən, iqtisadi şəraitdə və peşə statusunda dəyişikliklərlə müşayiət oluna bilər. Bu dinamikanı başa düşmək peşəkar şəraitdə bərabərliyi və inklüzivliyi təşviq edən siyasət və təcrübələrin hazırlanması üçün vacibdir.

Feminizasiyanın tarixi qadın bərabərliyi uğrunda mübarizənin və daha ədalətli və əhatəli cəmiyyət yaratmağa yönəlmiş ictimai şüurda və strukturda dəyişikliklərin tarixidir.

**Müəllim peşəsinin feministləşməsi**

Müəllimlik peşəsinin feministləşməsi qadınların üstünlük təşkil etdiyi qlobal bir hadisədir. Bu tendensiya xüsusilə ibtidai və orta məktəblərdə nəzərə çarpır, indi qadınlar müəllimlərin əksəriyyətini təşkil edir (Schmude & Filimon, 2019). Təhsilin feminizasiyası 19-cu əsrdə başladı, 20-ci əsr boyu davam etdi və qadın müəllimlərin sayının əhəmiyyətli dərəcədə artmasına səbəb oldu (Kelly, 2016). Müəllimlik peşəsi ənənəvi olaraq qadınları uşaq baxımı və tərbiyəsi ilə əlaqələndirən stereotiplərə görə qadınlar üçün uyğun hesab olunurdu. Nisbətən uyğun qrafik və part-time iş imkanı da daxil olmaqla, təhsildə iş şəraiti qadınlar, xüsusən də ailə qayğıları ilə peşəkar işlərlə məşğul olanlar üçün cəlbedici ola bilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 30 ölkəsində və bir sıra tərəfdaş ölkələrində təhsil sistemləri üzrə 2017-ci ilə aid müqayisəli göstəricilərinin bir çoxunu özündə əks etdirən təhsil üzrə məlumatların və fikirlərin əks olunduğu hesabatlarda son

illərdə müəllim peşəsinin "feministləşdirilməsi" bir danılmaz fakt olaraq qeyd edilir. Tarixən müəllimlik sahəsi qadınların öz peşəkarlıqlarını tapa bildikləri bir neçə sahədən biri hesab olunurdu və "feministləşmə" bu sahədə qadınların sayının davamlı artması tendensiyasını əks etdirə bilər. Bu onunla bağlı ola bilər ki, qadınlar özlərinin və istedadlarının təsdiqi, eləcə də ənənəvi olaraq başqalarının qayğısına qalmaqla bağlı olan bir sahədə işləmək imkanı tapırlar. Nümunə olaraq tədqiqat aparılan bütün ölkələrdəki qadın müəllimlərin orta payının 2005-ci ildəki 61%-dən 2014-cü ildəki 68%-ə qalxması göstərilir. Bu artım ABŞ və Sloveniyada 1% olsa da, Almaniya, Yaponiya və Yunanıstanda 15% təşkil edir (OECD, 2017). Azərbaycandan olan görüntü də fərqli deyildir. Bu göstərici 2015-ci il ildəki 78,6%-dən 2022-ci ildə 82%-ə dəyişib (Dövlət Statistika Komitəsi (DSK), 2023). Göründüyü kimi həm Azərbaycanda, həm də bir çox digər ölkələrdə son onilliklərdə müəllimlər arasında qadın müəllimlərin sayı artır. Bu rəqəmlər göstərir ki, qadın müəllimlərin faiz nisbəti artmaqdadır və nəticədə kişi və qadın müəllimlərin sayları arasındakı fərqliliyin ölçüsü genişlənir. Qadın müəllimlərin sayının kişi müəllimlərdən çox olması peşənin "feministləşdirilməsinə" gətirib çıxarır ki, bu da ənənəvi gender rollarının möhkəmlənməsinə səbəb olur (Rahayani, 2017). Peşənin feminizasiyası qadınların təbii olaraq qayğıkeş və tərbiyəedici rollara daha uyğun olduğuna dair stereotipləri gücləndirə bilər. Cəmiyyətdə müəllim peşəsinin "qadın" kimi qəbul edilməsi bu peşənin sosial statusuna və nüfuzuna təsir edə bilər ki, bu da kişiləri bu peşəni seçməkdən çəkindirə bilər. Peşədə qadınların üstünlük təşkil etməsinə baxmayaraq, həm qadın müəllimlər, həm də pedaqoji fakültələrdə təhsil alan tələbələr təbii meyl və uşaqlar və gənclərlə işləmək istəyini əsas gətirərək, feministləşməyə ümumiyyətlə müsbət baxırlar (Vrgoč, 2020). Lakin kişi müəllimlərin çatışmazlığı təhsilalanları kişi rol modellərindən məhrum edə bilər ki, bu da oğlanlar üçün xüsusilə vacibdir. Bu, təhsilalanların qarşısında gördükləri müxtəlif davranışları və həyat yollarını məhdudlaşdıra bilər. Bununla belə,

sahəyə daha çox kişi cəlb etmək üçün müəllim peşəsinin sosial devalvasiyasını aradan qaldırmağa və müəllim ləyaqətini bərpa etməyə ehtiyac var (Mills vd. 2004). Müəllimlər arasında bir cinsin üstünlük təşkil etməsi məktəb mədəniyyətində balanssızlıq yarada bilər ki, bu da gender bərabərliyinə və şagirdlərin gender rolları haqqında təsəvvürlərinə təsir göstərə bilər. Müəllimlik peşəsi ilə bağlı gender stereotiplərini aradan qaldırmaq üçün çalışmaq vacibdir ki, kişilər və qadınlar sosial gözləntilərdən çox, öz maraq və qabiliyyətlərinə əsaslanaraq sərbəst şəkildə karyera seçə bilsinlər.

Feministləşmə özünü pedaqoji ixtisaslarda təhsil alan tələbələrin gender fərqlərində də göstərir. DSK (2023)-dən əldə edilən məlumatlara əsasən Azərbaycanda pedaqoji fakültələrdə təhsil alan kişi tələbələrin sayı 2010-cu ildəki 32%-dən 2022-ci ildə 20%-ə qədər azalmışdır. Bu isə hal-hazırda müəllimlərin gender nisbətində olan fərqin daha da çoxala biləcəyinə işarə edir. Bəzi tədqiqatçılar bu tendensiyanın davam edəcəyindən və tədricən müəllimlik peşəsinin tam olaraq bir qadın peşəsinə çevriləcəyindən narahatdırlar (Drudy, 2008; Mills vd., 2004). Azərbaycanda artıq on ildən artıqdır ki, müəllimlərin işə qəbulu mərkəzləşmiş qaydada keçirilir. İşə qəbul olunan gənc pedaqoji işçilərin son 5 ilə aid statistikasına baxdıqda daha bir narahatedici mənzərənin şahidi oluruq:

**Cədvəl 1.** ***Müəllimlərin İşə Qəbulu müsabiqəsi üzrə statistika (M.Hacıyev, e-mail, 02.05.2024)***

| **İllər** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **CƏMİ** |
|---|---|---|---|---|---|---|
| **MİQ müsabiqəsinə müraciət etmiş namizədlərin sayı** | 54687 | 53880 | 62243 | 60461 | 62554 | 293825 |
| **Onlardan kişi namizədlərin sayı** | 9294 | 8019 | 9594 | 9322 | 9803 | 46032 |
| **Faizlə** | ***16,99%*** | ***14,88 %*** | ***15,41%*** | ***15,41%*** | ***15,67%*** | ***15,67*** |
| **İşə qəbul olunan müəllimlərin sayı** | 3295 | 5345 | 3620 | 3930 | 4368 | 20558 |
| **Onlardan kişi müəllimlər** | 551 | 713 | 538 | 583 | 777 | 3162 |
| **Faizlə** | ***16,7%*** | ***13,3%*** | ***14,8%*** | ***14,8%*** | ***17,8%*** | ***15,5%*** |

Cədvəldəki statistikadan da göründüyü kimi Müəllimlərin İşə Qəbulu (MİQ) müsabiqəsinə müraciət edən namizədlərin cəmi 15,67%-i kişi namizədlərdir, analoji olaraq

müəllimlik statusu qazanan müəllimlərin də 15,5%-i kişi müəllimlərdir. Əvvəl də qeyd edildiyi kimi 2022-ci ildə pedaqoji təhsil alan kişi tələbələrin sayı ümumi tələbə sayının 20%-i təşkil etdiyi halda, MİQ müsabiqəsinə müraciət edən kişi namizədlər cəmi 15% təşkil edir. Elə isə sual yaranır: Ali məktəbə qəbul zamanı pedaqoji istiqamət seçərək 4 il müddətində təhsil alan və təhsil sənədi əldə edən kişi məzunların ixtisasları üzrə peşə fəaliyyətinə başlamamasının səbəbləri nədən ibarətdir?

**Tədqiqatın əhəmiyyəti**

Azərbaycanda ali məktəblər istisna olmaqla digər bütün təhsil ocaqlarında təhsil işçilərinin 79,1%-nin qadınlar təşkil edir: Otuz şəhər və rayonda bu göstərici 80%-dən, Mingəçevir, Gəncə, Yevlax, Bakı, Samux və Naxçıvanda 90%-dən, Naftalanda isə 95%-dən çoxdur (ETN, 2015). Qeyd edilən statistika 2023-cü ildə 82%-ə yüksəlmişdir (DSK, 2023). DSK-nın (2023) rəsmi məlumatları əsasında gender balansı ilə bağlı illər üzrə müqayisəli təhlil aparılsa görünər ki, ümumtəhsil müəssisələrində fəaliyyət göstərən kişi müəllimlərin sayı 2000-ci ildəki 50320 nəfərdən 2022-ci ildə 27177 nəfərə azalmışdır. Faiz etibarı ilə bu 31,5%-dən 18,1 faizə qədər azalmadır. İbtidai təhsil səviyyəsində bu azalma 16,2%-dən 6,5%-ə, ümumi orta və tam orta təhsil səviyyəsində isə 30%-dən 16%-ə dəyişmişdir (DSK,2023). Fənn müəllimləri arasında kişi müəllimlərinin xüsusi çəkisinin ən çox olduğu istiqamətə 34,2%-lə fiziki tərbiyə müəllimləri başçılıq edir. Statistikanın bu formada dəyişməsinə əsas təsir edən amillərdən biri qadın müəllimlərin böyük hissəsinin yeni nəsil müəllimlər (30 yaşdan aşağı) arasında olmasıdır ki, bu da zaman keçdikcə gender balanssızlığı ilə bağlı narahatlıqları artırır (OECD, 2017).

**Tədqiqatın məqsədi**

Bu tədqiqatın əsas məqsədi pedaqoji ali təhsil istiqaməti seçən kişi tələbələrin seçimlərinə təsir edən səbəbləri, təhsil aldıqları müddətdə müəllimlik peşəsinə münasibətləri və gələcək peşə fəaliyyəti ilə bağlı planlarını araşdırmaqdan ibarətdir. Bu

tədqiqat, tələbələrin müəllimlik karyerasını seçməmələrinin səbəblərini və arxasındakı amilləri müəyyən etməyə yönlənmişdir. Müəllimlik ixtisasını seçən, lakin peşəni seçməyən tələbələrin sayının artması ilə bağlı ictimai fikirlərin səbəblərini aydınlaşdırmağa çalışılıb.

Tədqiqatın hədəfləri, tələbələrin müəllimlik peşəsini seçməmələrinin səbəblərini daha ətraflı şəkildə müəyyənləşdirməyi, bu qərarları formalaşdıran müxtəlif amilləri müzakirə etməyi və tələbələrin müəllimlik karyerasına olan maraqlarını və qərarlarını təhlil etməyi əhatə edir. Ümumtəhsil pilləsini başa vurduqdan sonra ali təhsil üçün pedaqoji ixtisas seçən, lakin məzun olduqdan sonra müəllim olaraq işləmək istəməyən kişi tələbələrin seçiminə təsir edən amillərin üzə çıxarılması hədəflənir. Qeyd edilən bu amillərin formalaşmasına təsir edən səbəblər, bu səbəblərin hansı vəziyyətlərdə yaranması kimi sualları təhlil etmək tədqiqatın əsas hədəflərindəndir. Bu, kişi müəllimlərin sayını artırmağa yönəlmiş siyasətlərin işlənib hazırlanmasına kömək edə bilər. Əlavə hədəf kimi son illərin statistik məlumatlarında da öz əksini tapan kişi müəllimlərin sayının azalan dinamikasının səbəblərini müəyyən etmək göstərilə bilər.

Qeyd edilən məqsədləri həyata keçirmək və hədəflərə çatmaq üçün müəyyənləşdirilən ***tədqiqat sualları*** bunlardır:

1. Pedaqoji ali təhsil alan kişi tələbələrin ixtisas seçiminə təsir edən faktorlar hansılardır?
2. Pedaqoji fakültələrdə təhsil alan kişi tələbələr peşə ixtisasına uyğun peşə fəaliyyəti ilə bağlı planları nədir?

Birinci sual pedaqoji təhsil alan tələbələrin bu istiqaməti seçməsinə təsir edən xarici və daxili faktorları müəyyən etməyə çalışacaq. İkinci sual isə daha çox tələbələrin karyera məqsədlərini araşdırmağa, ixtisasına uyğun peşə fəaliyyəti ilə bağlı düşüncələri və bu düşüncələrin yaranmasına təsir edən səbəbləri müəyyən etməyi hədəf götürmüşdür.

## Ədəbiyyat icmalı

Bu tədqiqatın məqsədlərini daha yaxşı anlamaq və problemin miqyasını təsəvvür etmək üçün bu bölmədə ədəbiyyat təhlili edilir. İlk olaraq qeyd oluna bilər ki, ədəbiyyat təhlili zamanı kişi müəllim çatışmazlığı və müəllim namizədlərinin peşə demotivasiyası ilə bağlı Azərbaycanda nəşr edilmiş hər hansı bir tədqiqat nəticələrinə rast gəlinməyib. 2015-ci ildən başlayaraq hər il Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi (ETN) illik hesabatlar yayımlayır. Bu hesabatlarda ölkənin təhsil sistemi ilə bağlı bütün detallar öz əksini tapır. 2015-ci ilə aid hesabatda ölkə üzrə ali məktəblər istisna olmaqla digər bütün təhsil ocaqlarında təhsil işçilərinin 79,1%-ni qadın müəllimlərin təşkil etdiyinə dair məlumatlar öz əksini tapmışdır. Otuz şəhər və rayonda bu göstəricinin 80%-dən, Mingəçevir, Gəncə, Yevlax, Bakı, Samux və Naxçıvanda 90%-dən, Naftalanda isə 95%-dən çox olduğu qeyd olunmuşdur (ETN, 2015). 2017-ci ilə aid hesabatda ilk peşə-ixtisas təhsili müəssisələrində işləyən pedaqoji heyətin 67%, orta ixtisas təhsili müəssisələrində işləyən pedaqoji heyətin 77%-nin qadınlar olduğu qeyd edilmiş, məktəbəqədər, ümumi təhsil və ali təhsil pilləsi ilə bağlı məlumat olmamışdır (ETN, 2017). Növbəti 2 ilin hesabatında isə orta ixtisas təhsili müəssisələrində işləyən bütün heyətin 75%-nin, müəllimlərin isə 78%-nin qadın olması ilə bağlı statistika öz əksini tapmışdır (ETN, 2018, 2019). 2020-ci ilin hesabatında məktəbdənkənar təhsil müəssisələrində fəaliyyət göstərən işçilərin gender fərqi faizlə 57/43, orta ixtisas təhsili müəssisələrində isə faizlə 76/24 olaraq göstərilir (ETN, 2020). 2021-ci ilin hesabatında isə orta ixtisas təhsili müəssisələrində fəaliyyət göstərən bütün işçilərin 77%, pedaqoji heyətin isə 80%-nin qadın olduğu görünür (ETN, 2021). Göründüyü kimi, təhsilverənlərin gender balansı ilə bağlı məlumatların bu qədər az olması ilə yanaşı, illər üzrə kişi təhsilverənlərin sayının azalması ilə bağlı səbəblər və ya tədqiqatlar mövcud deyil.

Azərbaycandan fərqli olaraq OECD-nin dövrü hesabatlarında, eləcə də postsovet ölkələrinin bir çoxunda (Rusiya, Qazaxıstan, Özbəkistan və s) təhsilverənlərin gender balansı, illər keçdikcə kişi müəllimlərinin sayının azalması, bu azalmaya təsir edən səbəblər ardıcıl olaraq təhlil edilir və bu istiqamətdə tədqiqatlar aparılır (Dolton vd., 2018; İrsaliyev vd., 2019; OECD, 2017) Bu tədqiqatlar ümumiyyətlə bu fenomenin səbəblərini anlamaq, kişiləri müəllimlik peşəsinə cəlb etmək və saxlamaq üçün strategiyalar hazırlamaq məqsədi daşıyır. ABŞ-də Milli Təhsil Statistikası Mərkəzinin bir araşdırması ölkədə mövcud tendensiyaları təhlil edərək bəlli zaman çərçivəsində təhsilverənlər arasında qadın müəllimlərin sayının artması səbəblərini tədqiq etmişdir (Ingersoll vd., 2018). Təhsil Siyasəti Araşdırma Qrupunun araşdırması isə müəllim peşəsində kişilərin nisbətinin azalmasının səbəblərini müzakirə edir və problemi həll etmək üçün strategiyalar təklif edir (Drudy vd., 2005). Beynəlxalq Təhsil, Mədəniyyət və Elm Təşkilatının layihəsi çərçivəsində aparılan araşdırmada kişi müəllimlərin zəif təmsilçiliyin səbəbləri və çətinlikləri müzakirə olunur, OECD ölkələrində kişi müəllimlərin sayı və vəziyyətini yaxşılaşdırmaq üçün tövsiyələr verilir (Han vd., 2020). Bu tədqiqatlar kişi müəllimlərin sayının azalması problemi ilə bağlı mühüm məlumatlar və təhlillər təqdim edir və müxtəlif ölkələrdə vəziyyətin yaxşılaşdırılması üçün siyasət və proqramların hazırlanmasına kömək edir. Müəllimlik peşəsinin feminizasiyasına və kişi müəllimlərin sayının azalmasına yönəlmiş tədqiqatlarla yanaşı, bu mövzu ilə bağlı müxtəlif aspektləri araşdıran bir sıra başqa tədqiqatlar da mövcuddurm (Cruickshank, 2018; Moosa, 2019; Thornton, 2022). Onlardan bəzilərinə aşağıdakılar daxildir: Kişilərin müəllim olmaq üçün motivasiyaları üzrə tədqiqatlar kişilərin müəllim olmaq qərarlarına təsir edən motivasiyaları və amilləri, eləcə də bu seçimi edərkən qarşılaşdıqları maneələri araşdırır. Kişilərin təhsildə roluna dair tədqiqatlar kişilərin təhsil proseslərindəki roluna və onların şagirdlərə, xüsusən də məktəb kontekstinə təsirinə diqqət yetirir. Təhsil strukturlarının qavrayışlarına dair araşdırmalar

təhsil strukturlarının və mədəniyyətin kişilərin müəllimlik peşəsi haqqında təsəvvürlərinə necə təsir etdiyini və bu sahədə kişilər üçün daha cəlbedici mühit yaratmaq üçün hansı dəyişikliklərin edilə biləcəyini təhlil edir. Şagirdlərə təsirlə bağlı araşdırmalar kişi müəllimlərin şagird nailiyyətlərinə, motivasiyasına və davranışına, həmçinin onların gender rolları və imkanlarına olan inanclarına təsirini təhlil edir. Kişilərin təhsildə karyera inkişafına dair tədqiqatlar kişilərin təhsildə karyera inkişaf proseslərini və bu yolda qarşılaşdıqları maneələri araşdırır. Bu tədqiqatlar kişi müəllimlərin sayının azalmasının başa düşülməsində və daha müxtəlif və inklüziv təhsil mühitinin yaradılması üçün strategiyaların işlənib hazırlanmasında mühüm rol oynayır. Kişilərin müəllimlik peşəsinə cəlb edilməsinə hansı amillərin və təsirlərin kömək etdiyini başa düşmək üçün kişilərin müəllim olmaq motivləri ilə bağlı bəzi araşdırmalar aparılırmışdır. Bu araşdırmalar kişilərin bu peşəni seçmələrinin səbəblərini və üzləşdikləri maneələri müəyyən etməyə kömək edir. İlk olaraq kişilərin şəxsi təcrübəsinə baxmaq lazımdır. Belə ki, müəllim peşəsinin seçiminə ilham verən təcrübə - onların öz müəllimləri, ailə şəraiti və ya qərarlarına təsir edən digər amillər daxil ola bilər. Cruickshank (2018), Thornton (2022), Moosa (2019) və digərləri hesab edirlər ki, bəzi kişi müəllimlər gənclərin həyatına və inkişafına təsir etmək imkanına görə müəllimliyə cəlb oluna bilər.

Bu tədqiqatlar təkcə kişilərin müəllim olmaq motivasiyasını anlamağa deyil, həm də onları bu sahədə cəlb etmək və saxlamaq üçün strategiyalar hazırlamağa kömək edir. Aragon (2016), Ingersoll və digərlərinin (2018) apardıqları tədqiqatların nəticələrini ümumiləşdirdikdə müəllimlər arasında kişi müəllimlərin sayının azalmasına təsir edən səbəbləri belə təsnif etmək olar:

– *Gərgin fəaliyyət*: Müəllim peşəsi adətən yüksək emosional və fiziki intensivlik tələb edir. Bu, bəzi kişilər üçün qorxuducu ola bilər, xüsusən də onlar daha az stressli və daha az yüklü olan peşələrə üstünlük verirlərsə.

– *Cəmiyyətdə kişi müəllimlərə qarşı münasibət*: Bəzi cəmiyyətlərdə müəllimliyin əsasən qadınlara aid bir peşə olduğuna dair stereotiplər var. Bu, ayrı-seçkiliyə və ya həmkarlarından və ümumilikdə cəmiyyətdən təcrid olunma hissinə səbəb ola bilər ki, bu da bəzi kişiləri bu peşəni seçməkdən çəkindirə bilər.

– *Təhsilin çevikliyini tələb edən daimi dəyişikliklər*: Təhsil sistemləri daim dəyişir və müəllimlər tez-tez yeni tələblərə və tədris metodlarına uyğunlaşmalı olurlar. Bunun üçün yüksək səviyyəli çeviklik və uyğunlaşma tələb oluna bilər ki, bu da adətən bəzi kişilərin seçimlərinə uyğun gəlməyə bilər.

– *Əmək haqqı və müəllim peşəsinin prestiji*: Bəzi ölkələrdə və regionlarda, xüsusən də ibtidai və orta məktəblərdə müəllimlərə aşağı maaş verilir ki, bu da peşəni kişilər üçün daha az cəlbedici edə bilər, xüsusən də ailə öhdəlikləri kontekstində. Bundan əlavə, müəllim peşəsinin nüfuzu aşağı ola bilər ki, bu da kişilər üçün bu peşənin cəlbediciliyinə mənfi təsir edir.

Bu amillər kişilərin müəllimlik peşəsini seçmək qərarına təsir göstərə bilər. Bu peşənin kişilər üçün daha cəlbedici olması təhsil sistemində islahatların aparılmasını, sosial stereotiplərin dəyişdirilməsini, iş şəraitinin və əmək haqqının yaxşılaşdırılmasını tələb edə bilər.

**Gərgin fəaliyyət**

Müəllimlik ixtisaslarına qəbul ballarının aşağı olması abituriyentlərin bu istiqamət üzrə ixtisasları seçməsinə səbəb olur (İrsaliyev vd., 2019). Aşağı keçid balları müəllim peşəsinin yüksək bal tələb edən digər sahələrə nisbətən daha az prestijli olduğu təəssüratı yarada bilər. Aşağı ballara görə müəllimlik ixtisasına daxil olan tələbələrin motivasiyası və peşəyə marağı aşağı ola bilir ki, bu da onların təhsilinə və peşəkar inkişafına mənfi təsir göstərə bilər. Motivasiyası aşağı olan tələbələr dərslərində canfəşanlıq göstərməyə bilər ki, bu da gələcək müəllimlərin hazırlanması keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilir.

Keçid ballarının artırılması və ixtisasların tədrisi üçün giriş tələblərinin sərtləşdirilməsi daha həvəsli və hazırlıqlı tələbələri cəlb etməyə kömək edə bilər. Nijnetaqil Dövlət Universitetində aparılan tədqiqat göstərir ki, tələbələrinin karyera istiqamətinə əsas təsir edən amil stabil və etibarlı, eyni zamanda uzunmüddətli işin olmasıdır, lakin məzunlar real həyatın tələbləri ilə gözləntilərinin eyni olmadığı ilə qarşılaşırlar (Meşkova, 2014). İlk görünüşdə "natamam iş günü" kimi qiymətləndirilə biləcək müəllimlik peşəsi asudə vaxtın böyük hissəsini növbəti tədris fəaliyyətinə hazırlaşmaq (cari planlaşdırma, gündəlik, qiymətləndirmə vasitələri və s) üçün alır. Müəllim peşəsi emosional və fiziki zəhmət tələb edən yüksək intensivlik tələb edir (Kirillova vd., 2019). Müəllimin emosional gərginliyinə müxtəlif ehtiyac və qabiliyyətlərə malik olan müxtəlif tələbələrlə işləmək, onların fərdi ehtiyaclarını ödəmək, həmçinin sinfi səmərəli idarə etmək və müsbət təhsil mühitini saxlamaq imkanı daxil ola bilər. Fiziki gərginlik də əhəmiyyətli ola bilər, çünki müəllimlər sinifdə hərəkət edərək ayaqları üzərində çox vaxt sərf edirlər və dərsləri hazırlamaq və öyrətməkdən fiziki gərginlik yaşaya bilərlər. Bu emosional və fiziki gərginlik xüsusilə sinifdə şagird müxtəlifliyinin artması, təhsilalanların sosial və emosional problemləri, təhsil siyasəti və texnologiyasındakı dəyişikliklər kimi müasir çağırışlar kontekstində hər gün arta bilər. Böyük Britaniya Müəllimlərin Həmkarlar Assosisasiyasının (2023) apardığı tədqiqatlar göstərir ki, təhsil fakültələrini bitirən kişi məzunların 76%-i başqa sahədə işləyir, müəllimlik peşəsində çalışma qərarı verənlərin 54%-i isə ilk 10 ildə bu peşədən uzaqlaşır. Bu, kişi müəllimlərin motivasiyası, iş şəraiti və dəstəyi ilə bağlı bir neçə əsas sual doğurur. Pedaqoji fəaliyyətin ilk 10 ilində kişi müəllimlərin işdən uzaqlaşma nisbətinin yüksək olması iş şəraitində, dəstək və motivasiyada problemlər olduğunu göstərir. Müəllimlik peşəsini seçən kişi məzunların aşağı faizi məktəblərdə gender balanssızlığına gətirib çıxarır ki, bu da təhsilalanlar üçün rol modellərinin müxtəlifliyinə təsir göstərə bilər. Tədqiqatlar göstərir ki, kişi müəllimlərin olması gender müxtəlifliyini

təşviq etmək və oğlanlar üçün müsbət nümunələri qorumaq üçün vacibdir (Skelton, 2003). Aşağı maaş və peşənin nüfuzu kişiləri təhsil sahəsində karyera seçimindən çəkindirə və tükənməyə səbəb ola bilər. İnzibati məsuliyyətlərlə bağlı yüksək stress səviyyəsi, çoxlu sənədləşmə işləri və dəstəyin olmaması müəllimlərin işdən uzaqlaşmasına səbəb ola bilir. Oleynikov və Penkova (2016) hesab edirlər ki, peşə fəaliyyətinin ilk günündən etibarən məsuliyyətin və gözləntilərin ölçüsünün böyük olması, həddindən artıq kağız işlərin mövcudluğu gənc mütəxəssislərin, xüsusi ilə kişilərin müəllimlik peşəsindən uzaqlaşmasına səbəb olmuşdur. Kişi müəllimlərin prosesdə rastlaşdıqları məyusluqlar, bu məyusluqların öhdəsindən gəlmək üçün istifadə etdikləri yolları tədqiq edən Weaver-Hightower (2011), bu istiqamətdə "normativ çərçivələrə" ehtiyac olduğunu qeyd edir. Şagirdlərlə fiziki təmasda olan kişi müəllimlər xüsusi çətinliklər və maneələrlə üzləşə bilər. Cruickshank (2018) tərəfindən aparılan tədqiqat bunun təhsildə çalışan kişilər üçün qorxu və qeyri-müəyyənlik mənbəyi ola biləcəyini təsdiqləyir. Araşdırmada qorxu və qeyri-müəyyənliyin bir neçə qaynağı göstərilir:

- *Səhv izahetmə qorxusu*: Səhv izahetmə qorxusu müəllimlərin, xüsusən də kişi müəllimlərin təhsil kontekstində davranışlarına təsir edə bilən ümumi faktordur. Bu qorxu qeyri-müəyyənlikdən və ya müəllimin hərəkətlərinə və ya niyyətlərinə başqalarının mənfi reaksiya gözləməsindən yarana bilər. Kişi müəllimlər, xüsusən də uşaqların təhlükəsizliyi və cinsi zorakılıqla bağlı ictimai narahatlıqlar fonunda niyyətlərinin yanlış şərh oluna biləcəyindən narahat ola bilirlər.
- *Fiziki təmasların sərhədləri ilə bağlı qeyri-müəyyənlik*: Kişilər şagirdlərlə sağlam münasibətlər saxlamaq və uyğun olmayan hər hansı davranışdan qaçınmaq arasında sərhədlər barədə əmin ola bilmirlər. Yəni fiziki təmasların sərhədləri ilə bağlı qeyri-müəyyənlik kişi müəllimlər üçün əhəmiyyətli narahatlıq və qeyri-müəyyənlik mənbəyi ola bilər. Bu, təhsilalanlara dəstək və qayğı göstərərkən onlarla

münasibətdə peşəkar və etik standartların qorunması ehtiyacından irəli gəlir. Bu sərhədlərin dəqiq müəyyən edilməməsi, müəllimlərin necə davranacağına qərar verməkdə çətinlik çəkə biləcəyi vəziyyətlərə gətirib çıxara bilər.

- *Pedofiliya və ya qeyri-qanuni davranış ittihamlarından qorxu*: Uşaqların təhlükəsizliyi ilə bağlı ictimai narahatlıqlar fonunda kişilər, xüsusən də təhsilalanlara fiziki dəstək göstərsələr, pis davranış və ya hətta pedofiliya ittihamları ilə üzləşə bilərlər. Qeyri-qanuni davranış, o cümlədən pedofiliya ittihamı qorxusu kişi müəllimlər üçün ciddi problemdir. Bu qorxuya təkcə real təhlükə deyil, həm də sosial stereotiplər və risk qavrayışı səbəb ola bilər (Avcı vd., 2019; Mills vd., 2004; Richardson & Watt, 2016).

Müəllimlərin üzləşdiyi təzyiq və stress, xüsusən də kişi müəllimlər üçün fiziki təmasla bağlı problemləri daha da gücləndirə bilər. Bu problemlər çətin şagirdlər, dəstəyin olmaması və işdə qeyri-müəyyənlik də daxil olmaqla, müəllimlərin üzləşdiyi müxtəlif təzyiq və stresslərlə daha da ağırlaşa bilər (Tancred, 1991). Bütün bu amillər fiziki təmas problemlərinin müəllimlərə, xüsusən də kişi müəllimlərə təsirini artırmaq üçün qarşılıqlı təsir göstərə bilər. Müəllimlərə bu problemlərin öhdəsindən gəlməkdə kömək etmək üçün məktəb rəhbərlərinin dəstəyi, peşəkar inkişaf proqramları, stresin idarə edilməsi vasitələri və sinifdə çətin vəziyyətlərin öhdəsindən gəlmək üçün konstruktiv strategiyalar lazımdır (Cruickshank, 2018).

**Cəmiyyətdə kişi müəllimlərə qarşı münasibət**

Müəllimlik vacib peşədir. Hər gün dünyanın müxtəlif yerlərində müəllimlər heyrətamiz işlər görürlər. Ancaq çox vaxt onların fəaliyyəti qiymətləndirilmir və mükafatsız qalır. Varkey Fondunun 2013 və 2018-ci illərdə apardığı tədqiqatlar müəyyən edib ki, az sayda insan müəllimliyə yüksək statuslu iş kimi baxır və çox az sayda insan təhsilalanların müəllimlərinə hörmət etdiyini düşünür. Bir çox ölkələrdə, o cümlədən

Braziliya, Almaniya, Fransa və İtaliyada valideynlərin yarıdan çoxu övladlarını müəllimlik peşəsinə cəlb etməkdən çəkindirir. Tədqiqat onu da göstərir ki, müəllim işçilərinin əksəriyyətinin qadın olduğu ölkələrdə müəllimlərin statusu aşağı olur. Bu, mümkün gender stereotiplərinin səviyyəsini və ya müəllim peşəsində qadınların daha çox təmsil olunduğu ölkələrdə feministləşmənin müəllimlərin statusuna zərər verə biləcəyini göstərir (Dolton vd., 2018). Varkey Fondunun tədqiqat nəticələri ilə PISA-2018-in nəticələrini qarşılaşdıranda maraqlı bir mənzərə alınır. Belə ki, hər iki tədqiqatın nəticələrində eyni ölkələr qrupu cədvələ liderlik edir, eyni ölkələr qrupu isə sonluqda qərarlaşıb (Dolton vd., 2018). Mills və digərlərinə (2004) görə, müəllimlik peşəsinin "feminizasiyası" müəllimlik statusunun devalvasiyasına səbəb olur. Kişi peşələrinin ənənəvi olaraq yüksək qiymətləndirildiyi cəmiyyətlərdə peşənin feministləşməsi peşənin statusunun aşağı düşməsinə səbəb ola bilər. Bu, qadınların üstünlük təşkil etdiyi peşələrə daha az dəyər verən gender stereotipləri ilə bağlıdır. Peşənin statusunun aşağı düşməsi istedadlı və həvəsli namizədləri, o cümlədən kişiləri ruhdan sala bilər ki, bu da tədrisin keyfiyyətinə və kadr hazırlığına mənfi təsir göstərə bilər. Peşənin statusunu yaxşılaşdırmaq və gender stereotiplərini dəyişdirmək üçün ictimai təsəvvürlərə yeni baxış tələb olunur. Buraya müəllimlərin rolunun təbliği və onların cəmiyyətə verdiyi töhfələrin tanınması daxildir. Maaşların artırılması və karyera imkanlarının yaradılması peşənin statusunu yaxşılaşdırmağa və daha çox kişini müəllimlik sahəsinə cəlb etməyə kömək edə bilər. Kvislend ştatında qəbul edilmiş "Kişi müəllimlərin cəlbi, qəbulu və saxlanılması" sənədi konteksində aparılmış tədqiqat bu nəticəyə gəlir ki, bir "qadın peşəsi" kimi qəbul edilən müəllimlikdə kişi müəllimlərin iştirakı cəmiyyətin onlara münasibətdə anormal, gey və ya potensial pedofil təsəvvürü yaratmasına səbəb olmuşdur (Mills vd., 2004). Bhana və Moosa (2015) hesab edirlər ki, gender bərabərliyi ən əsas prioritetlərdən biri kimi çıxış etdiyi dövrdə qadınlar ənənəvi "kişi peşələrinə" can atarkən kişilər "qadın peşələrindən"

uzaq durmağa davam edirlər. Xüsusilə ibtidai və orta məktəblərdə müəllimlik peşəsi ənənəvi gender rollarına görə çox vaxt qadınların işi ilə əlaqələndirilir ki, bu da kişiləri bu karyeradan çəkindirir. Kişilər mühəndislik və ya biznes kimi “kişi” peşələri seçmək üçün sosial təzyiqlə üzləşə və “qadın peşəsi” sayılan peşələrdən qaça bilərlər. Kişilərin müəllimlik peşəsindən uzaq durma səbəbi cəmiyyətin müəllim peşəsinin qadın peşəsi kimi qəbul etməsindən qaynaqlanır (Bhana & Moosa, 2015). 2002 və 2006-cu illərdə eyni 90 nəfər təhsilalanla etnoqrafik konteksdə müsahibə aparan Lahelma (2006) müəllimlər arasında kişi müəllimlərin azlığının ümumən müəllimlik peşəsinin prestiji baxımından narahatçılıq yaratdığı qənaətinə gəlir. Cəmiyyətdə kişi müəllimlərə münasibətdən danışarkən, Türkiyədə bu istiqamətdə aparılan tədqiqatlar maraq kəsb edir. Belə ki, Enginer və Saklan (2020) tədqiqat nəticəsində təhsil fakültələrində kişi tələbələrin sayının azalmasının həm kişi, həm də qadın tələbələri narahat etdiyi, habelə iştirakçıların əksəriyyətinin müəllimlik peşəsinin qadın peşəsi olması fikrinə qarşı olması qənaətinə gəlirlər. Başqa bir tədqiqatda isə kişi tələbələrin pedaqoji fakültədə kişilərin azlıq təşkil etməsi səbəbindən şəxsi münasibətlərdə və ünsiyyətdə problem yaşadıqları, cəmiyyətin və qadın qrup yoldaşlarının cinsiyyətə reaksiyalarından çətinlik çəkdikləri, kişi məktəbəqədər müəllimlərə qarşı valideynlərin qərəzli olacağından narahat olduğunu qeyd edilir (Avcı vd., 2019). ABŞ-də aparılan tədqiqatların nəticələri göstərir ki, akademik cəhətdən güclü məktəb məzunları bir qayda olaraq müəllimlik ixtisaslarına qəbul olmurlar, müəllim ixtisaslarına yiyələnmiş ali məktəb məzunlarının dörddə biri isə bu peşəni seçmirlər və ya ilk 5 ildə peşədən ayrılırlar (Richardson & Watt, 2016). Tədqiqatçılar bunun əsas səbəbi kimi rəqabətə davamlı olmayan müəllim əmək haqlarını, yüksək administrativ öhdəliklər və resurs çatışmazlığından yaranan stress və peşənin aşağı sosial statusunu göstərirlər. Şotlandiyada 1100, Honkonqda isə 1249 təhsilalan ilə aparılan tədqiqatın nəticəsində cəmiyyətdə təhsilə və müəllimlərə qarşı olan neqativ stereotiplərin gələcək müəllimlərə,

hətta ən pozitiv və yüksək motivasiyası olanlara belə mənfi təsir etdiyi Richardson və Watt (2016) tərəfindən müəyyən edilib. Göründüyü kimi kişi müəllimlərin fəaliyyəti ilə bağlı cəmiyyətdə bir çox stereotiplər mövcuddur. Bu stereotiplər müxtəlif olsa da nəticə etibarı ilə kişilərin bu peşədən uzaqlaşmasına səbəbiyyət verir. Cənubi Afrikada güc və hakimiyyətin kişi təməlləri (Bhana & Moosa, 2015), Avstraliyada məktəbəqədər təhsildə fəaliyyət göstərən kişi müəllimlərin anormal və ya gey hesab edilməsi (Mills vd., 2004), Türkiyədə valideynlərin kişi müəllimlərə qarşı şübhələri (Avcı vd., 2019), Şimali İrlandiyada xüsusi təhsildə olan kişi müəllimlərə münasibətdə "pedofiliya lə ittiham olunma" ehtimalı (Purdy, 2009) bu kimi stereotiplərdəndir. Təhsil ilə bağlı təşkilatlar, dövlət qurumları və icma qruplarının dəstəyi kişi müəllimlərə ictimai münasibətə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Gender stereotiplərinə meydan oxumaq, təhsildə bərabərliyi təşviq etmək və təhsildə kişilərə dəstək olmaq üçün təşkil ediləcək proqramlar kişi müəllimlər üçün daha qonaqpərvər mühit yaratmağa kömək edə bilər.

**Təhsilin çevikliyini tələb edən daimi dəyişikliklər**

Daimi dəyişikliklər qarşısında təhsil çevikliyinə ehtiyac ədəbiyyatda təkrarlanan bir mövzudur. Enemark (2007) uyğunlaşa bilən məzunların vacibliyini vurğulayır, Veletsianos və Houlden (2020) isə daha ədalətli və təhsilli gələcək yaratmaq üçün radikal çevikliyi müdafiə edir. Telyubaeva vd. (2022) ənənəvi və innovativ yanaşmaların inteqrasiyasında çevik təhsil təcrübələrinin rolunu, Iordache (2017) isə insanların sosial dəyişikliklər qarşısında hazır, çevik və məlumatlı olması zərurətini vurğulayır. Enemark (2007) təklif edir ki, təhsil sistemləri tələbələri dəyişən əmək bazarı tələblərinə və texnoloji dəyişikliklərə hazırlamalıdır. Buraya təkcə akademik biliklər deyil, həm də tənqidi düşüncə, problem həlli və ünsiyyət bacarıqları kimi yumşaq bacarıqlar daxildir. Radikal çeviklik (Veletsianos & Houlden, 2020) sosial və iqtisadi mənşəyindən asılı olmayaraq bütün tələbələr üçün bərabər imkanlar təmin edən təhsil sistemlərində dərin və hərtərəfli

dəyişiklikləri nəzərdə tutur. Bura texnologiyadan istifadə, fərdiləşdirilmiş öyrənmə və təhsil üçün maneələrin aradan qaldırılması daxildir. Çevik təhsil təcrübələri (Telyubaeva vd, 2022) zamanla sınaqdan keçirilmiş tədris metodlarını yeni innovativ yanaşmalarla birləşdirməyə imkan verir. Bu, müasir cəmiyyətin ehtiyaclarına cavab verə biləcək daha dinamik və uyğunlaşdırılmış kurikulumların yaradılmasına kömək edir. Sosial və iqtisadi dəyişikliklərin sürətlə getdiyi müasir dünyada insanların yeni şəraitə uyğunlaşmağa hazır olması vacibdir. Şagirdləri lazımi bilik və bacarıqlarla təmin etməklə bu dəyişikliklərə hazırlamaqda təhsil əsas rol oynamalıdır (Iordache, 2017). Bu aspektlər müəllimlərdən öz bacarıqlarını daim təkmilləşdirməyi, innovativ tədris metodlarını tətbiq etməyi və inklüziv təhsil mühiti yaratmağı tələb edir. Bu perspektivlər birlikdə sürətlə dəyişən dünyada uyğunlaşa və inkişaf edə bilən təhsil sistemlərinə ehtiyacı vurğulayır. Başqa sözlə, təhsil daimi və çevik dəyişikliklər tələb edən dinamik bir sahədir. Elm və texnikanın sürətli inkişafı təhsil proqramlarına inteqrasiya edilməli olan yeni bilik və texnologiyaların yaranmasına səbəb olur. Bu, tədris materiallarının və tədris metodlarının daim yenilənməsini tələb edir. Fullan (2016) təhsildə dəyişiklik proseslərini araşdırır və dəyişən şərtlərə cavab olaraq davamlı təkmilləşdirmə və uyğunlaşmanın vacibliyini vurğulayır. Qloballaşma və dəyişən sosial əlaqələr təhsil sistemlərinin yeni qarşılıqlı əlaqə və ünsiyyət formalarına uyğunlaşmasını tələb edir. Müəllimlər və təhsilalanlar çoxmillətli və mədəni müxtəlif mühitlərdə işləməyə hazır olmalıdırlar. Hargreaves (2005) müəllimin peşəkar inkişafının və təhsil sistemlərində davamlı dəyişikliklərin əhəmiyyətini araşdırır. Əmək bazarının tələbləri daim dəyişir və təhsil sistemləri təhsilalanları yeni peşəkar tələblərə və bacarıqlara hazırlamalıdır. Buraya tənqidi təfəkkür, yaradıcılıq, komanda işi və müasir texnologiyalardan istifadənin inkişafı daxildir. Robinson (2008) yaradıcılığı inkişaf etdirmək və müasir çağırışlara cavab vermək üçün təhsil sistemlərinin uyğunlaşdırılması ehtiyacına diqqət yetirir. Hər bir şagird unikaldır və təhsil sistemləri şagirdlərin müxtəlif

ehtiyaclarını və qabiliyyətlərini ödəmək üçün çevik olmalıdır. Bu, təlimin fərdiləşdirilməsi üçün müxtəlif pedaqoji yanaşma və texnologiyalardan istifadəni tələb edir. Hopkins və digərləri (1997) təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına və məktəblərdə adaptiv dəyişikliklərin əhəmiyyətinə nəzər salır. Beləliklə, təhsil sistemləri çevik olmalı və aktual və effektiv qalmaq üçün müntəzəm olaraq dəyişməyə hazır olmalıdır. Bunun üçün müəllimlərin davamlı peşəkar inkişafı, kurikulumların və tədris metodlarının yenilənməsi, elm və cəmiyyətlə fəal əlaqə tələb olunur. Bu tədqiqatçılar və onların işləri sürətlə dəyişən dünyada aktual və effektiv qalmaq üçün təhsil sistemlərində daimi dəyişiklik və uyğunlaşma ehtiyacını dəstəkləyən əsaslı arqumentlər və məlumatlar təqdim edir. XXI əsrin ehtiyaclarından dolayı təhsil sahəsində aparılan islahatların intensivliyi başqa bir səbəb olaraq çıxış edir. Tələb və ehtiyacların sürətlə dəyişməsi müəllimlərdən operativlik və çeviklik tələb edir. Bu isə “stabillik” mühitini pozur. GCSE (Orta təhsil haqqında ümumi şəhadətnamə) və A-level (təhsil haqqında ümumi attestat) islahatlarının sürətlə həyata keçirilməsi Şimali İrlandiya və Uelsdə bir çox müəllimlərin peşədən uzaqlaşmasına səbəb olmuşdur (Barrance & Elwood, 2018). Bu araşdırma göstərir ki, təhsil sistemində aparılan islahatlar müəllimlərə necə mənfi təsir göstərə bilir, onların stress və narazılığına səbəb olur və bu da öz növbəsində peşəkarların təhsildən uzaqlaşmasına səbəb olur. Barrance və Elwoodun (2018) Şimali İrlandiya və Uels kontekstində apardığı tədqiqatda təsvir edilənlər Rusiyada müəllimlik peşəsində gənc mütəxəssislərin, xüsusən də kişilərin üzləşdiyi bir çox problemlərə bənzəyir. Həddindən artıq kağız işlərin mövcudluğu, peşə fəaliyyətinin ilk günündən etibarən məsuliyyətin və gözləntilərin ölçüsünün böyük olması, yeni Federal Dövlət Təhsil Standartları, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və digər yeniliklərlə bağlı sonsuz təcrübələr gənc mütəxəsisləri, xüsusi ilə kişiləri müəllimlik peşəsindən uzaqlaşmasına səbəb olmuşdur (Oleynikov & Penkova, 2016). Bu araşdırmalar göstərir ki, yüksək tələblər və təhsil sistemində tez-tez aparılan islahatlar

peşəkar tükənməyə və gənc mütəxəssislərin, xüsusən də kişilərin peşədən uzaqlaşmasına səbəb ola bilər. Bu problemlərin həlli üçün müəllimlərin iş şəraitini yaxşılaşdırmaq, inzibati yükü azaltmaq, gənc müəllimlərə dəstək vermək lazımdır. Purdy (2009) hesab edir ki, bütün bu qeyd edilənlər gənc kişi müəllimlərin "komfort zonasından" uzaqlaşmasına səbəb olur. Yeni müəllimlərin peşəyə uğurla uyğunlaşmasına və davam etməsinə kömək etmək üçün dəstəkləyici mühit yaratmaq, resurslar və mentorluq təmin etmək lazımdır.

**Əmək haqqı və müəllim peşəsinin prestiji**

İqtisadiyyatın digər sektorları ilə müqayisədə, xüsusən də kişilərin maaşlarının aşağı olması bir çox kişi müəllimlərin təhsil sahəsini tərk etmək qərarına gəlməsinin əsas səbəblərindən biri ola bilər. Kişi müəllimlər digər ali təhsilli işçilərin əmək haqqının 71%-ni alır, bunun əksinə olaraq, qadın müəllimlər təhsilin bütün səviyyələrində digər ali təhsilli qadın işçilərin əmək haqqının ən azı 90%-ni alırlar (OECD, 2017). Əmək haqlarındakı bu kəskin fərq müəllimlik peşəsini qadınlar üçün daha cəlbedici edə bilir. Bu məlumatlar müəllim peşəsində gender balansını yaxşılaşdırmaq və onu həm kişilər, həm də qadınlar üçün daha cəlbedici etmək üçün bərabər maaş və iş şəraitinin vacibliyini vurğulayır. PISA-2015-in nəticələri elan edildikdən sonra Qazaxıstanda müəllim peşəsinin seçiminə təsir göstərən faktorların müəyyənləşdirilməsi üçün 11 şəhər və 16 kənd məktəbində fəaliyyət göstərən, yaşı 34-də qədər olan 650 müəllim və pedaqoji fakültələrdə təhsil alan 648 tələbədən toplanılan data əsasında müəyyən edilmişdir ki, müəllimlik peşəsinin nüfuzunun aşağı olması və kifayət qədər rəqabət qabiliyyətli olmayan müəllim maaşları kişiləri bu işdən uzaqlaşdırır, çünki ənənəvi ailələrin əksəriyyətində kişi ailəni dolandırmalıdır və bunun üçün kifayət qədər pul qazanmalıdır (İrsaliyev vd., 2019). Hanushek və digərləri (2016) tərəfindən aparılan bir araşdırma, müəllim maaşının artırılmasının xüsusilə kişilər arasında dövriyyə nisbətlərini əhəmiyyətli dərəcədə azalda biləcəyini müəyyən etdi. Tədqiqatçılar əmək haqqının vacibliyini müəllimlərin karyera qərarlarına təsir edən əsas

amillərdən biri kimi qeyd edirlər. Bu araşdırma göstərir ki, adekvat kompensasiya təhsil sahəsində ixtisaslı müəllimləri saxlamağa və kişi müəllimlərin peşəni tərk etmə problemini azaltmağa kömək edə bilər, eyni zamanda təsdiq edir ki, müəllimlərin maaşının artırılması işçi qüvvəsini sabitləşdirməyə və işdən çıxmağı azaltmağa kömək edə bilər ki, bu da kişiləri müəllimlik peşəsinə cəlb etmək və saxlamaq üçün xüsusilə vacibdir. Başqa bir araşdırma ixtisaslı mütəxəssislərin saxlanılması üçün təhsil sektorunda adekvat və rəqabətqabiliyyətli əmək haqqının vacibliyini vurğulayır, adekvat əmək haqqının müəllimləri cəlb etmək və saxlamaq üçün əsas amil olduğunu və müəllimlik peşəsində kişilərin işdən çıxması probleminin həllində xüsusi əhəmiyyət kəsb edir (Podgursky & Springer, 2007). Ladd (2011) tərəfindən aparılan araşdırma təsdiq edir ki, maliyyə stimulları müəllimlərin işdən məmnunluğunu və peşəsində qalmaq istəyini qoruyub saxlamaqda mühüm rol oynayır. Qeyri-qənaətbəxş maaş tükənməyə və yüksək gərginliyə səbəb ola bilər ki, bu, xüsusilə müəllimlik sahəsindəki kişilər üçün keçərlidir. Aşağı maaş müəllim peşəsinin nüfuzunu azalda bilər ki, bu da karyera seçimində sosial təzyiq hiss edən kişilər üçün xüsusilə vacibdir. Müəllimlərdən çoxsaylı inzibati vəzifələri yerinə yetirmək və peşəkar bacarıqları daim yeniləmək zərurəti kimi yüksək gözləntilər adekvat əmək haqqı ilə kompensasiya olunmaya bilər, bu da peşədən narazılığı artırır. Belə vəziyyətdə kişi müəllimlər daha yüksək sosial və iqtisadi statuslu karyera seçmək üçün sosial təzyiq hiss edə bilərlər (Podgursky & Springer, 2007). Kişilər, xüsusən də ailənin əsas təminatçısı olanlar, daha çox iqtisadi təhlükəsizlik və inkişaf perspektivləri təmin edən, maaş artımı və karyera yüksəlişi imkanlarının məhdud olması səbəbindən tez-tez təhsildən kənarda qalan peşələri seçə bilərlər. Bu amillər müəllimlərin yerdəyişməsini azaltmaq və peşəni daha cəlbedici etmək üçün müəllimlərin, xüsusilə kişilərin əmək haqqı şəraitinin yaxşılaşdırılması zərurətini ortaya qoyur. Müəllimlər üçün adekvat kompensasiya yalnız ixtisaslı müəllimləri saxlamağa kömək etmir, həm də təhsilin ümumi

keyfiyyətini artırır (Cushman, 2005; Irvine & Vermilya, 2010; Oleynikov & Penkova, 2016).

Tədqiqatların nəticələrini ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, müəllimlər arasında kişi müəllimlərin sayının azalması gərgin iş, cəmiyyətin kişi müəllimlərə münasibəti, təhsil sistemində daimi dəyişikliklər, əmək haqqı və peşənin nüfuzu məsələlərini əhatə edən amillər kompleksi ilə əlaqələndirilir. Gərgin fəaliyyətlər və yüksək səviyyədə emosional və fiziki stress daha az stressli fəaliyyətlərə üstünlük verən bəzi kişilər üçün qorxulu ola bilər. Cəmiyyətdə stereotiplər və ayrı-seçkilik də öz rolunu oynayır, təcrid hissi yaradır və kişilərin müəllimlikdən yayınmasına səbəb olur. Təhsil sistemlərindəki daimi dəyişikliklər yüksək səviyyəli çeviklik və uyğunlaşma tələb edir ki, bu da bəzi kişilərin prioritetlərinə uyğun gəlməyə bilər. Əmək haqqının və peşənin nüfuzunun aşağı olması da onu kişilər üçün daha az cəlbedici edir, xüsusən də ailə məsuliyyətləri kontekstində. Bütün bu amillər müxtəlif tədqiqatlarla təsdiqlənir və problemin həllinə daha cəlbedici iş şəraitinin yaradılmasına, peşənin nüfuzunun artırılmasına və gender stereotiplərinin aradan qaldırılmasına yönəlmiş kompleks yanaşmanın zəruriliyini vurğulayır.

**Müəllim peşəsinin seçimi**

Tələbələrin gələcəyə dair mənfi gözləntiləri arasında ən çox rast gəlinən problemlərdən biri də iş tapa bilməməkdir (Özsarı, 2008). Gələcək müəllimlərin bütün təhsilləri boyu gözləntiləri onların gələcək müəllimlik peşələri ilə sıx bağlıdır. Müəllim olduqdan sonra bu gözləntiləri doğrulsa, peşə həyatından razı qalacaq və müəyyən dərəcədə peşəkar məmnunluq yaşayacaqlar. Lakin bu baş verməsə və gözləntiləri qarşılanmasa, o zaman onların gözləntiləri yorğunluq, qane olmama və ya narazılıq kimi hisslərlə əvəzlənəcək (Menon, 2004). Bu səbəbdən gələcək müəllimlərin gözləntilərinin müəyyən edilməsi və tədris prosesi başlayanda gənc müəllimlərin razı ola biləcəyi təhsil

mühitinin hazırlanması həm tələbələrin alacağı təhsil və təlim, həm də müəllimlərin peşə həyatı baxımından mühüm əhəmiyyət kəsb edir.

Bununla belə, tələbələrin müəllimlik peşəsi ilə bağlı həddindən artıq gözləntiləri olması, onların məmnun ola bilməyəcəkləri bir mühitdə qalma ehtimalını artırır (Menon, 2004). Hacettepe Universitetinin Təhsil fakültəsinin tələbələri arasında aparılan araşdırma nəticəsində məlum olub ki, qız tələbələrin peşə gözləntiləri kişi tələbələrinkindən daha yüksəkdir. Ali məktəbi bitirməyə yaxın tələbələrin peşə gözləntilərinin azaldığı aşkar edilmişdir və bunun iş axtarışından dolayı narahatlıq səviyyəsinin artması ilə bağlı ola biləcəyi irəli sürülür (Akman, 1992).

Dumlupınar Universitetinin Təhsil fakültəsinin tələbələri arasında aparılan araşdırmada, tələbələrin 62%-nin gələcəyə ümidli, 38%-nin isə narahat olduğu müəyyən edilmişdir (Özel, 2006).

Yıldız və Buyrukçu (2005) tərəfindən müəllim namizədlərinin peşə gözləntilərinin öyrənilməsi zamanı aşağıdakı nəticələr əldə edilmişdir:

- Müəllimliyə namizədlər ümumiyyətlə müəllimlərin maaşlarını qeyri-kafi hesab edir və xüsusilə yaşayış səviyyəsi yüksək olan ərazilərdə çalışan müəllimlərin artırılmasını istəyirlər.
- Müəllim namizədləri hesab edirlər ki, onların iqtisadi gözləntiləri fəaliyyətə təsir göstərir.
- Müəyyən edilmişdir ki, müəllimlərin maaşlarının aşağı olması onların cəmiyyətdəki vəziyyətinə mənfi təsir göstərir.
- Müəllim təyinatında mövcud kvotaların sayı müəllim namizədlərini narahat edir.
- Müəllimliyə namizədlər təyinatlarının baş tutmayacağından və bu vəziyyətin onları psixoloji cəhətdən yoracağından narahatdırlar.

- Namizədlər müəllim təyin olunmasalar, ailələri ilə problem yaşayacaqlarını və bu vəziyyətin onları çox narahat etdiyini bildirdilər.
- Müəllim təyin olunmaqdan duyduqları narahatlığın bəzi müəllim namizədlərinin peşədən uzaqlaşması ilə nəticələndiyini bildirdilər.
- Müəllimliyə namizədlər hesab edirlər ki, hər bir namizəd konkret sahəyə təyin olunmalıdır.
- Müəllimliyə namizədlər müəllim olduqdan sonra idman və teatr kimi ictimai-mədəni tədbirlərdə iştirak etmək istəyirlər və bunu dərs dedikləri bölgədəki insanlarla əməkdaşlıq edərək etmək istəyirlər.
- Müəllimliyə namizədlər hesab edirlər ki, müəllimlər müxtəlif mədəniyyətlərlə ayaqlaşa bilməlidirlər və onlar dərs dedikləri cəmiyyətlə əlaqə saxlamaq istəyirlər.
- Müəllimliyə namizədlər hesab edirlər ki, müəllimlər öz sahələrində yeni nəşrlərlə ayaqlaşmalı, elmi görüşlərdə iştirak etməli, müəllimlik peşəsinə tam hazır olmalı, texnologiyadan ən yaxşı şəkildə istifadə etməli, magistratura kimi alternativləri nəzərdən keçirərək şəxsi və peşəkar inkişaf etməlidirlər.

Müasir şəraitdə müəllimliyə namizədlərin müəllimlik peşəsinə dair gözləntilərinə mənfi təsir göstərən bir çox amillər var və mövzu ilə bağlı elmi araşdırmaların aparılmaması vəziyyətin yaxşılaşdırılması üçün atılan addımların müəyyən səviyyədən kənara çıxmasına mane ola bilir.

## Tədqiqat metodologiyası

Pedaqoji fakültələrdə təhsil alan kişi tələbələrin müəllimlik peşəsini seçməsinə təsir edən amilləri və gələcək peşə məqsədlərinin öyrənilməsini əsas məqsəd seçən bu tədqiqatda kəmiyyət metodundan istifadə edilmişdir. Bu tədqiqat üçün bir neçə səbəbə görə kəmiyyət metodu seçilib:

– *Obyektiv məlumatların toplanması*: Kəmiyyət metodu rəqəmsal formada məlumatların toplanmasına və təhlilinə imkan verir ki, bu da respondentlərin münasibətlərini, inanclarını və qavrayışlarını ölçməyə və qiymətləndirməyə kömək edir. Bu, böyük nümunələr üzrə tendensiyaların və müqayisələrin obyektiv təhlili tələb olunduqda xüsusilə faydalıdır.

– *Tədqiqatın miqyası*: Kəmiyyət yanaşması xeyli sayda iştirakçıların öyrənilməsinə imkan verir ki, bu da nəticələrin ümumiləşdirilməsi imkanını artırır. Tədqiqat bir neçə universitetin tələbələrini əhatə etdi və kəmiyyət məlumatları daha böyük nümunələr üzrə müqayisəli təhlilə imkan verdi.

– *Birdən çox dəyişənlərin ölçülməsi*: Kəmiyyət üsulları eyni vaxtda çox dəyişənlərin və onların əlaqələrinin ölçülməsinə imkan verir. Tədqiqatda, məsələn, hər bir aspekt üçün aydın ədədi nəticələr verən sorğular və anketlərdən istifadə edərək, müəllim karyerası üçün motivasiya, inam və gözləntilər təhlil edilib.

– *Müqayisəli təhlil*: Respondent qrupları arasındakı əlaqələri və fərqləri müəyyən etmək və nəticələri digər tədqiqatlarla müqayisə etmək üçün kəmiyyət yanaşması lazım idi. Bu, məlumatların statistik təhlilinə imkan verdi, daha dəqiq nəticələr əldə etməyə və fərziyyələr irəli sürməyə imkan verdi.

Buna görə də, kəmiyyət metodu seçilmişdir, çünki o, ölçülə bilən və obyektiv şəkildə şərh edilə bilən və digər tədqiqatlarla müqayisə üçün istifadə edilə bilən məlumatları əldə etmək imkanı verir.

Anket çoxlu sayda insandan məlumat toplamaq üçün dəyərli vasitədir (Roopa vd., 2012). Bununla belə, onların effektivliyi anket tərtibatının keyfiyyətindən asılıdır, anket, aydın, məntiqli və mürəkkəb filtrləmədən azad olmalıdır (Jenn, 2006). Anketin düzgün tərtibatına sözlərin aydınlığı, sualların məntiqi ardıcıllığı və respondentləri çaşdıra bilən və alınan məlumatların düzgünlüyünə təsir edən mürəkkəb filtrlərin minimuma endirilməsi daxildir. Beləliklə, anketlər yaxşı tərtib olunarsa, dəyərli məlumatların əldə edilməsi və dərin tədqiqatların aparılması üçün güclü vasitə ola bilər.

Bu tədqiqatda data toplama üçün anketdən istifadə edilmişdir. Anket, Özsarı (2008) tərəfindən hazırlanan və təkmilləşdirilən "Şəxsi məlumat forması" və "Müəllimlik peşəsindən gözləntilər" əsasında hazırlanıb. Bununla bağlı müəllifə e-mail yazılıb və müəllifin razılığı əldə edilib. "Şəxsi məlumat formasında" tələbələrin yaşı, ixtisası, ailənin aylıq gəlir durumu, magistr dərəcəsi barədə düşünüb-düşünmədikləri, məzun olduqdan sonra məşğulluq planları ilə bağlı suallar öz əksini tapıb. 29 maddəlik sınaq şkalası forması 2006-2007-ci tədris ilində İstanbul Universitetinin Hasan Ali Yücel Təhsil Fakültəsinin yuxarı kurs tələbələrindən 153 nəfərə tətbiq edilmiş və şkalanın etibarlılıq araşdırmaları aparılmışdır. Aparılan təhlillərdən sonra formadan 3 maddə çıxarılmış və 26 maddəlik son halı saxlanılıb. Şkalanın ümumi davamlılıq əmsalı $r=0.866$ ($p<.01$) bal olduğu müəyyən edilib. Şkala "Tamamilə razıyam", "Razıyam", "Qərarsızam", "Razı deyiləm" və "Tamamilə razı deyiləm" kimi beş ballıq Likert tipli qiymətləndirmə şkalası forması ilə hazırlanmışdır. Anket azərbaycan dilinə tərcümə edilib, elmi rəhbər və 2 müstəqil ekspertin rəyini almaq üçün təqdim edilib. Rəylər alındıqdan sonra test edilmək üçün Sumqayıt Dövlət Universitetinin pedaqoji fakültələrinin son kursunda təhsil alan kişi tələbələrə göndərilmişdir. Pilotda 32 nəfər iştirak edib.

Bütün bu prosedurlardan sonra ilk olaraq qalan suallar üçün Cronbach Alpha etibarlılıq əmsalı hesablanmış və $r = 0,68$ olduğu müəyyən edilmişdir.

**Cədvəl 2.** ***Cronbach Alpha***

| **Raw_alpha** | | | | | |
|---|---|---|---|---|---|
| Q1 | 0,68 | Q6 | 0,70 | Q11 | 0,71 |
| Q2 | 0,64 | Q7 | 0,68 | Q12 | 0,64 |
| Q3 | 0,71 | Q8 | 0,65 | Q13 | 0,64 |
| Q4 | 0,70 | Q9 | 0,67 | Q14 | 0,64 |
| Q5 | 0,64 | Q10 | 0,66 | Q15 | 0,62 |

Q3, Q6 və Q11 çıxarıldıqda isə r = 0,78 olduğu müəyyən edilib.

Tədqiqat üçün data Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Gəncə Dövlət Universiteti (GDU) və Bakı Dövlət Universitetinin (BDU) Qazax filialının pedaqoji fakültələrində təhsil alan kişi tələbələrdən toplanmışdır. DSK-nın (2023) məlumatına görə hazırda ADPU-da 13 min, GDU-də 5 min, BDU-nun Qazax filialında isə min nəfərdən çox bakalavr tələbə təhsil alır və bunlardan təxminən 25%-i kişi tələbələrdir. Təxmini 5 min kişi tələbə populyasiyası üçün 95% əminlik və 5% nisbi xəta halında tədqiqata cəlb olunması ideal hesab edilən say 357 olur.

Sorğu Google Forms-da tərtib edilmiş və qeyd edilən universitetlərin pedaqoji fakültələrinin sonuncu kursunda təhsil alan kişi tələbələrə yönəldilmişdir. Tədqiqatın mövzusu ilə birbaşa əlaqəli respondentlərin fikirlərini toplamağa imkan verən məqsədyönlü seçmə üsulundan istifadə edilmiş, sorğuda iştirak edən respondentlərin ümumi sayı 338 nəfər olmuşdur.

Şəxsi Məlumat Formasından alınan məlumatlar hər bir bəndin məzmununa uyğun rəqəmlərlə kodlanmış və məlumatlar Microsoft Office Excel proqramına daxil edilmişdir. Daha sonra əldə edilən fayl SPSS proqramına köçürülüb.

Şəxsi məlumat formasından əldə edilən bütün məlumatlar tədqiqatın nəticələr bölməsində verilmişdir.

Anketin ümumi balı və onun alt ölçüləri və məlumatların təhlili üçün; Məlumatlar Microsoft Office Excel proqramına "Tamamilə Razıyam" 1, "Razıyam" 2, "Qərarsızam" 3, "Razı deyiləm" 4 və "Qəti razı deyiləm" 5 kimi kodlaşdırılaraq daxil edilmişdir.

## Respondentlər haqqında məlumat

Bu bölmədə ADPU, GDU və BDU-nun Qazax filialının pedaqoji fakültələrin son kursunda təhsil alan 338 tələbənin 13 maddəlik Şəxsi Məlumat Formasında əldə edilən nəticələr yer alır. Sorğuda iştirak edən tələbələrin təhsil aldıqları ixtisaslar 1 №li şkalada əks edilib:

**Şkala 1.** ***İxtisaslar***




Pedaqoji fakültələrin sonuncu kursunda oxuyan kişi tələbələr arasında sorğudan əldə edilən statistika müxtəlif fakültələr üzrə tələbələrin paylanmasında əhəmiyyətli fərq olduğunu göstərir. Ən populyarı tarix və coğrafiya fakültələridir ki, burada 207 tələbə təhsil alır, bu da respondentlərin ümumi sayının 61%-dən çoxunu təşkil edir. Bu, kişilər üçün bu sahənin daha cəlbedici olduğunu göstərə bilər, bəlkə də tarix və coğrafiyaya olan maraq, eləcə də bu sahələrdə karyera perspektivləri ilə əlaqədardır. Tələbə sayına görə ikinci yeri 54 tələbə ilə kimya və biologiya fakültələri tutur ki, bu da ümumi sayının təxminən 16%-ni təşkil edir. Bu göstərici də əhəmiyyətlidir və kişilərin elmə və elmin tədrisinə marağını göstərə bilər. Filologiya fakültəsi daha az sayda tələbə cəlb edir - 29 nəfər (təxminən 9%), bu da kişilər arasında dil və ədəbiyyatla bağlı humanitar elmlərə daha az maraq göstəricisi ola bilər. Riyaziyyat fakültəsi də kişilər arasında çox populyar deyil - 27 tələbə (təxminən 8%). Bu, riyaziyyat fənlərinin çətinliyi və ya digər sahələrlə

müqayisədə daha zəif karyera perspektivləri ilə bağlı ola bilər. Ən az tələbə bədən tərbiyəsi və fizika fakültələrində - müvafiq olaraq 12 (təxminən 4%) və 9 nəfər (təxminən 3%) təhsil alır. Bu, məhdud karyera imkanlarını və ya az adamın bu sahələrə xüsusi marağı göstərə bilər.

Beləliklə, statistika kişilər arasında müxtəlif pedaqoji sahələrin populyarlığında əhəmiyyətli fərqləri əks etdirir ki, bu da onların şəxsi maraqları, karyera gözləntiləri və kişilərin təhsildə rolu ilə bağlı ictimai stereotiplərlə bağlı ola bilər.

Bir çox tədqiqatçılar (məs. O'Connor, 2020) kişi müəllimlərinin əsas etibarilə riyaziyyat və fizika kimi fənlərin tədrisində üstünlük təşkil etdikləri ilə bağlı məlumatı qəbul edirlər. Bəzi ölkələrdə aparılan tədqiqatlar da bu nəticəyə gəlir, irəlidə bu tədqiqatlarla nəticələrin müqayisəsi verilib. Lakin keçirilən sorğuda riyaziyyat və fizika fakültələrində təhsil alan tələbələrin iştirak etmə faizinə baxanda bunun əksini görmək mümkündür. Bu, karyera seçiminə təsir edən sosial amillərlə bağlı ola bilər. Kişilər ənənəvi olaraq riyaziyyat və fizikanın tədrisi ilə əlaqəli olsalar da, sosial stereotiplər və gözləntilər gənc kişilərin seçimlərinə təsir edə bilər. Onlar daha yüksək sosial statusa və ya daha yaxşı karyera perspektivlərinə malik olaraq qəbul etdikləri daha çox "kişi" peşələri və ya sahələri seçmək üçün təzyiq hiss edə bilərlər. Sorğunun nəticələri göstərir ki, riyaziyyat və fizika tədrisində kişilərin dominantlığına dair stereotiplər indiki nəsil tələbələr üçün doğru olmur. Bu tapıntılar peşə seçimlərinə təsir edən amillərin başa düşülməsinin və tədqiqinin vacibliyini və cinsindən asılı olmayaraq istedadlı müəllimləri cəlb etmək və saxlamaq üçün tədrisin bütün sahələrini dəstəkləmək və inkişaf etdirmək zərurətini vurğulayır.

"*Bu ixtisası seçməyə ən çox təsir edən amil hansı olub?*" sualına tələbələrin cavabları aşağıdakı cədvəldə əks olunmuşdur:

**Cədvəl 3.** ***İxtisas seçiminə təsir edən amillər***

| **İxtisas seçiminə təsir edən amil** | **Say** |
|---|---|
| Qəbul balı bu fakültəyə uyğun idi | 119 |
| Müəllim olmaq mənim arzum idi | 78 |
| Ailəm bu fakültəni seçməyimi istədi | 59 |
| Sosial və iqtisadi baxımından müəllimlik etibarlı peşədir | 34 |
| Uşaqlarla işləmək həvəsi | 29 |

Ən çox tələbə (119) uyğun qəbul ballarına əsasən müəllimlik ixtisasını seçib. Bu, Irsaliyev və digərlərinin (2019) tədqiqatı ilə üst-üstə düşür ki, bu da aşağı qəbul ballarının abituriyentləri pedaqoji ixtisasları seçməyə məcbur etdiyini vurğulayır. 78 tələbə arzularına görə müəllimlik peşəsini seçib. Bu cavab, şəxsi motivasiya və müəllimlik həvəsinin bu peşənin seçilməsində mühüm amillər olduğunu göstərən araşdırmaları dəstəkləyir (Richardson & Watt, 2016). 59 tələbənin ixtisas seçimində ailənin rolu olub. Araşdırmalar göstərir ki, ailə ənənələri və gözləntiləri gənclərin karyera seçimlərinə əhəmiyyətli dərəcədə təsir edə bilər (Johnson, 2016). 34 tələbə müəllimlik peşəsini sosial-iqtisadi baxımdan etibarlı hesab edildiyi üçün seçdiklərini bildirmişdir. Bu, sabit məşğulluq və iş təhlükəsizliyinin karyera seçimində mühüm amillər olduğunu göstərən tədqiqatlarla təsdiqlənir (Ladd, 2011). 29 respondent isə uşaqlarla işləmək arzusu ilə müəllimlik peşəsini seçib. Bu, uşaqlara məhəbbətin və onlara öyrətmək istəyinin müəllimlik karyerasını davam etdirənlər üçün əsas motivator olduğuna dair tədqiqat nəticələrinə uyğundur (Hanson & Christensen, 2022).

Təhlil göstərir ki, tələbələr üçün müəllimlik ixtisası seçərkən ən vacib amil onların qəbul ballarıdır, qəbul sisteminin abituriyentlərin qərarlarına təsirini önə çəkir. Bununla belə, şəxsi motivasiya, ailənin təsiri, iş təhlükəsizliyi haqqında təsəvvürlər və uşaqlarla

işləmək istəyi də mühüm rol oynayır. Bu məlumatlar beynəlxalq tədqiqatlarla üst-üstə düşür və müəllim peşəsinin seçilməsi prosesinin multifaktorial xarakterini vurğulayır.

Maraqlıdır ki, "*İxtisas seçimi zamanı müəllimlik ixtisasını neçənci sırada yazmışdınız?*" sualanın cavabında respondentlərin 78%-i ilk 3 sıradan biri olduğunu qeyd etmişlər. Bu, müəllimlik ixtisası seçiminin səbəblərini də təstiqləyən bir statistikadır.

Sorğudakı növbəti suallar ailədə uşaq sayı və ailənin aylıq gəlirləri ilə bağlı olmuşdur.

**Şkala 2.** ***Ailədə övlad sayı***




Ən kiçik qrupu (24 nəfər) ailənin tək övladları təşkil edir. Bu, tək uşaqlı ailələrin fərdi təlimat və dəstək üçün daha çox imkanlara malik ola biləcəyini göstərə bilər. Lakin onların ixtisas seçimi təkcə ailənin gəlirindən deyil, digər amillərdən, məsələn, şəxsi maraqlarından və karyera ambisiyalarından asılı ola bilər. Tələbələrin əksəriyyəti (144 nəfər) iki uşaqlı ailələrdəndir. Belə ailələr resursların və diqqətin daha yaxşı bölüşdürülməsinə malik ola bilər ki, bu da təhsil imkanlarına və karyera seçimlərinə müsbət təsir göstərə bilər. Belə ailələrin orta gəliri çox güman ki, hər iki uşaq üçün yaxşı təhsil verəcək. Üç uşaqlı ailələrdə (114 nəfər) resurslar daha bərabər paylana bilər, lakin maliyyə məhdudiyyətləri yarana bilər. Müəllim peşəsinin seçimi həm sosial sabitlik istəyi, həm də təhsilin mövcudluğu ilə müəyyən edilə bilər. Dörd və ya daha çox uşağı olan ailələr (56 nəfər) azlıq təşkil edir, lakin onlar da maddi çətinliklərlə üzləşə bilərlər. Belə ailələrdə ixtisas seçimi təhsilin mövcudluğu və gələcəkdə sabit iş əldə etmək imkanı ilə bağlı ola bilər.

**Cədvəl 4.** ***Ailənin aylıq gəliri ilə ailədəki övlad sayının nisbəti***

| Ailənin aylıq gəliri | Ailədə tək övlad | 2 övlad | 3 övlad | 4 və daha çox övlad | Cəmi |
|---|---|---|---|---|---|
| **350 AZN-ə qədər** | 4 | 30 | 35 | 10 | 79 |
| **351-600 AZN** | 7 | 28 | 24 | 11 | 70 |
| **601-900 AZN** | 5 | 29 | 21 | 16 | 71 |
| **901-1300 AZN** | 3 | 28 | 22 | 9 | 62 |
| **1301 AZN-dən çox** | 5 | 29 | 12 | 10 | 56 |

Aztəminatlı ailələrin (350 AZN-ə qədər) çoxu, ailədə uşaq sayı 3 (35 ailə) və 2 (30 ailə) olan ailələrdir. Yalnız uşaqlar daha azdır (4 ailə). Bu ailələr maddi çətinliklərlə üzləşə bilər ki, bu da övladlarının peşə seçimlərinə və gələcək təhsil qərarlarına təsir edə bilər. Bu gəlir diapazonunda (351-600 AZN) 2 uşaqlı ailələr üstünlük təşkil edir (28 ailə), ikinci yerdə 3 uşaqlı ailələr (24 ailə) gəlir. Bu, ən aşağı gəlir kateqoriyası ilə müqayisədə bir qədər daha əlverişli maliyyə şərtlərini göstərə bilər. Gəlirlərin 601-900 AZN-ə qədər artması ilə 2 uşaqlı (29 ailə) və 4 və daha çox uşaqlı (16 ailə) ailələrin sayı artır ki, bu da maddi vəziyyətin yaxşılaşması tendensiyasından xəbər verir. 3 uşaqlı (21 ailə) ailələr də əhəmiyyətli qrup olaraq qalır. 901-1300 AZN gəlir diapazonu daxilində 2 uşaqlı ailələr (28 ailə) və 3 uşaqlı ailələr (22 ailə) arasında yaxın bölgü mövcuddur. Bu, ailələrin gəlirləri artdıqca ikidən çox uşaq sahibi olmağı seçdiklərini göstərə bilər. Ən yüksək gəliri olan ailələrdə (1301 AZN-dən çox) 2 uşaqlı ailələr üstünlük təşkil edir (29 ailə). Bu, hər bir uşağın təhsilinə daha yaxşı sərmayə qoymağa imkan verən varlı ailələrdə daha az uşaq meylini əks etdirə bilər.

Bu məlumatlar göstərir ki, ailənin gəliri ailədəki uşaqların sayına təsir edə bilər. Daha yüksək gəlirlər ailələrə resursları daha yaxşı bölüşdürməyə imkan verir ki, bu da daha az uşaqda və hər bir uşağın təhsilinə daha çox diqqət yetirilməsində əks oluna bilər. Bu da öz növbəsində tələbələrin əsas seçimlərinə və karyera yollarına təsir edə bilər.

Yüksək gəlirlər daha uzun təhsil və daha yüksək xərc tələb edən peşələrin seçilməsi üçün də daha əlverişli şərait yarada bilər.

Respondentlərə növbəti ünvanlanan suallar "*Ailədə və ya yaxın qohumlar arasında müəllim varmı?*" və "*Əgər varsa, müəllimlik ixtisasını seçməyinizə bunun təsiri olubmu?*" idi. Ailədə və ya yaxın qohumları arasında müəllim olan tələbə sayı ümumi iştirakçıların 76%-ni (258 nəfər) təşkil edir. Maraqlıdır ki, cavabı "*bəli*" olan respondentlərdən 151 nəfəri, yəni 58%-i müəllimlik ixtisası seçiminə bunun təsiri olmadığını bildirmişlər. Qohumları arasında müəllim olan iştirakçıların çoxluğu tələbələrin bir çoxunun müəllimliklə bağlı ailələrdən olduğunu göstərir. Bu, bəzi cəmiyyətlərdə və ya regionlarda ümumi olduğu kimi, müəllim olmaq üçün mədəni və ya ailə ənənəsini göstərə bilər. Maraqlıdır ki, qohumları arasında müəllimi olan respondentlərin faizinin yüksək olmasına baxmayaraq, onların 58%-i bunun onların ixtisas seçiminə təsir etmədiyini bildirib. Əldə edilən məlumat, Johnson (2016) araşdırmasının nəticələrini dəstəkləyir ki, yaxın ailədə müəllimlərin olması peşə haqqında müsbət imici yarada bilsə də, bu, həmişə karyera seçimində həlledici amil deyil. Bu, şəxsi maraqlar, maliyyə mülahizələri və ya karyera perspektivləri kimi ixtisas seçiminə təsir edən digər, daha əhəmiyyətli amillərin olduğunu göstərə bilər. Bununla belə, respondentlərin 42%-i üçün qohumlar arasında müəllimlərin olması peşə seçiminə təsir edib. Bu, ailə ənənələrinin və nümunələrinin karyera qərarlarında, xüsusən də sosial və təhsil fəaliyyəti ilə bağlı peşələrdə mühüm rol oynaya biləcəyi fərziyyəsini dəstəkləyir.

Təhlil göstərir ki, qohumlar arasında müəllimlərin olması müəllimlik peşəsi seçimində mühüm rol oynasa da, respondentlərin əksəriyyəti üçün həlledici amil deyil. Şəxsi və xarici şərait gənclərin karyera qərarlarına daha çox təsir edə bilər. Bu tapıntılar peşə seçimi prosesinin mürəkkəbliyini və tələbə motivasiyasını öyrənərkən bir çox amilləri nəzərə almaq zərurətini vurğulayır.

“*Məzun olduqdan sonra müəllim kimi işləməyi planlaşdırırsınız?*” sualına “*Bəli*”, “*Xeyr*” və “*Qərar verməmişəm*” cavab variantlarından birini seçmək təklif edilmişdi.

**Şkala 3.** ***Müəllim peşəsində işləmək planları***




“*Əvvəlki suala cavab “Xeyr”, və ya "Qərar verməmişəm" oldusa, səbəbi nədir?*” sualına aşağıdakı kimi cavablar əldə edilmişdir:

**Cədvəl 5.** ***Müəllim peşəsinin seçilməməsinə təsir göstərən səbəblər***

| **Səbəblər** | **Say** |
|---|---|
| Əmək haqqına görə | 92 |
| Bu ixtisasa təsadüfən qəbul olmuşam | 30 |
| Cəmiyyətdə müəllimə münasibətə görə | 29 |
| Əsas diplom olsun, başqa iş tapmaq çətin deyil | 19 |
| Müəllim peşəsi daha çox qadına uyğundur | 15 |

Respondentlərin nisbətən böyük faizi (31,6%) universiteti bitirdikdən sonra müəllim işləyəcəkləri ilə bağlı qərarsızdır. Bu, əhəmiyyətli dərəcədə qeyri-müəyyənliyi və bəlkə də seçilmiş ixtisasa inamsızlığı göstərir. Respondentlərin müəllim işləmək istəməməsinin ən çox yayılmış səbəbi maaşların aşağı olmasıdır (27,2%). Bu onu təsdiq edir ki, maliyyə mülahizələri müəllimlik peşəsini seçərkən ciddi maneədir. Ladd (2011) tərəfindən aparılan araşdırma göstərir ki, maddi həvəsləndirmələr müəllimlərin, xüsusən də kişi müəllimlərin saxlanmasında mühüm rol oynayır. Respondentlərin təxminən 8,9%-i bu ixtisasa təsadüfən daxil olduqlarını bildirib. Bu, universitetə qəbul prosesində problemlər

və ya tələbələr arasında peşələr haqqında məlumatlılığın olmamasından xəbər verə bilər. Respondentlərin 8,6%-i peşəni tərk etmələrinin səbəbi kimi müəllimlərə ictimai münasibətin aşağı olmasını göstərib. Bu, peşənin cəlbediciliyinə təsir edən sosial problemdən xəbər verir. Respondentlərin 5,6%-i hesab edir ki, əsas diplomla başqa iş tapmaq çətin deyil. Bu, digər sahələrdə müəllimlik ixtisasına malik məzunlara olan yüksək tələbatı əks etdirə bilər. Respondentlərin 4,4%-i müəllim peşəsinin qadınlar üçün daha uyğun olduğunu düşünür. Bu, cəmiyyətdə kişilərin karyera seçimlərinə təsir edə biləcək gender stereotiplərinin mövcudluğunu təsdiqləyir.

Məlumatların təhlili göstərir ki, xeyli sayda tələbənin müəllim kimi işləməyi planlaşdırmasına baxmayaraq, seçimindən əmin olmayan və ya peşəsini dəyişmək niyyətində olanların da sayı az deyil. Əsas maneələr maaşların aşağı olması və müəllimlərə ictimai münasibətdir. Digər mühüm amil isə kişilərin müəllimlik peşəsinə cəlb olunmasının qarşısını alan təsadüfi ixtisas seçimi və gender stereotipləridir.

Təhsilini başa vurduqdan sonra müəllim olmağı planlaşdıran respondentlərə "*Hansı növ məktəbdə işləməyə üstünlük verərdiniz?*" sualı aşağıdakı kimi cavablandırılmışdır:

**Şkala 4.** ***İşləmək üçün planlaşdırılan məktəb növü***




Maraqlıdır ki, sorğuda iştirak edən 338 nəfərdən yalnız 131 nəfəri orta məktəblərdə müəllim kimi fəaliyyət göstərmək arzusunu bildirir. Respondentlər arasında şəhər məktəblərinin seçiminin üstünlük təşkil etməsi daha yaxşı iş şəraiti və peşəkar inkişaf

imkanları istəyini əks etdirir. Eyni zamanda, kənd məktəblərində işləmək istəyən respondentlərin xeyli hissəsi sosial töhfənin və yerli icmalarla sıx qarşılıqlı əlaqənin vacibliyini göstərir. Özəl məktəblərin seçilməsi və repetitorluq çeviklik və daha yaxşı maliyyə şəraiti istəyini, peşə məktəblərinə maraq isə ixtisas fənlərini tədris etmək istəyini göstərir.

Pedaqoji fakültələrin son kursunda təhsil alan tələbələrə "*Sizcə müəllim kimi fəaliyyət göstərə bilmək üçün ən əhəmiyyətli nədir?*" sualına növbəti cavablar alınmışdır:

**Şkala 5.** ***Müəllim kimi fəaliyyət göstərə bilmək üçün ən əhəmiyyətli amillər***




Diaqram respondentlərin onları müəllim olmağa sövq edən ən mühüm amillərlə bağlı suala cavablarının bölgüsünü göstərir. Təqdim olunan məlumatlara əsasən aşağıdakı nəticələr çıxarmaq olar:

– Respondentlərin yarıdan çoxu hesab edir ki, peşəyə məhəbbət müəllim peşəsini seçərkən əsas amildir. Bu, daxili motivasiyanın və tədrisə həvəsin vacibliyini vurğulayır.

– Respondentlərin təxminən dörddə biri hesab edir ki, onların ixtisasını bilməsi vacib amildir. Bu, tədrisdə uğurlu iş üçün peşəkar səriştənin və öz biliyinə inamın vacibliyini göstərir.

- Respondentlərin 9%-i şəxsi keyfiyyətlərin müəllimlik peşəsində mühüm rol oynadığı qənaətindədir. Bu, səbr, empatiya, ünsiyyət və liderlik kimi xüsusiyyətləri əhatə edə bilər.
- Respondentlərin daha 9%-i MİQ müsabiqəsinin uğurla başa çatmasını vacib amil hesab edir. Bu, təhsil sistemində seçim və rəqabət prosesinin vacibliyini göstərir.
- Respondentlərin yalnız 5%-i uşaqlara olan sevgini əsas amil kimi müəyyən edib. Bu onu göstərə bilər ki, uşaqlara məhəbbət vacib olsa da, müəllimlik peşəsinin seçimində peşəkar bacarıqlar və şəxsi motivasiya kimi digər amillər daha əhəmiyyətli rol oynayır.

Diaqramdan görünür ki, respondentlər üçün ən vacib amil müəllim peşəsinə sevgidir. İxtisasını və şəxsi keyfiyyətlərini bilmək də mühüm rol oynayır. Bu məlumatlar müəllimlik peşəsini seçmək motivlərini başa düşməyə və gənc mütəxəssisləri müəllimliyə cəlb etmək və saxlamaq üçün strategiyaları inkişaf etdirməyə kömək edə bilər. Araşdırmalar göstərir ki, insanların müəllim olmağı seçmələrinin əsas səbəblərindən biri cəmiyyətə və uşaqlara töhfə vermək istəyidir. Müxtəlif ölkələrdə aparılan sorğular təsdiq edir ki, uşaqlara məhəbbət, bilikləri bölüşmək və başqalarına kömək etmək istəyi kimi amillər əhəmiyyətli motivasiyadır (Charalambos, 2017).

## Nəticələr

Pedaqoji fakültələrdə təhsil alan kişi tələbələrin “müəllimlik peşəsi ilə bağlı planları” sorğusu özlüyündə üç alt qrupdan ibarətdir. Bu alt qruplar müəllim peşəsinə münasibət, müəllim karyerası ilə bağlı gözləntilər və tələbələrin müəllim peşəsi üçün özyetərliyindən ibarətdir. Bundan əlavə, bu gözləntilərin qarşılanacağına dair gözləntilərin səviyyələri dörd alt meyar üzrə araşdırıldı. Sorğu maddələrinin orta dəyəri üçün istifadə olunan ifadələr aşağıdakılardır:

- 4,08 – 5 aralığı yüksək gözlənti
- 3,13 – 4,07 aralığı orta gözlənti
- 2,20 – 3,12 aralığı aşağı gözlənti
- 1,25 – 2,19 aralığı isə ən aşağı gözlənti ifadə edən səviyyələrdir.

**Cədvəl 6.** ***Müəllim peşəsinə münasibət***

| | | **1** | **2** | **3** | **4** | **5** | **Orta** |
|---|---|---|---|---|---|---|---|
| | ***Müəllim peşəsinə münasibət ~ 4,43*** | | | | | | |
| Q1 | Müəllim peşəsi üçün genderin fərqi yoxdur | 25 | 7 | 14 | 48 | 244 | 4,41 |
| Q8 | Müəllimlik cəmiyyətdə hörmətli peşədir | 22 | 13 | 44 | 46 | 213 | 4,23 |
| Q9 | Müəllimlik məsuliyyətli peşədir | 3 | 1 | 14 | 31 | 289 | 4,78 |
| Q10 | Müəllimlik etibarlı peşədir | 5 | 7 | 34 | 58 | 234 | 4,51 |
| Q11 | Müəllimlik qadın peşəsidir (*cavablar çevrilib*) | 25 | 32 | 37 | 19 | 225 | 4,22 |
| | ***Müəllimlik karyerası ilə bağlı gözləntilər ~ 3,21*** | | | | | | |
| Q2 | MİQ imtahanına hazırlaşmaq əsas vəzifəmdir | 85 | 45 | 85 | 57 | 66 | 2,92 |
| Q3 | Universitetdəki dərslərə girməkdənsə MİQ imtahanına hazırlaşmaq daha məqsədəuyğundur | 86 | 47 | 68 | 37 | 100 | 3,05 |
| Q6 | Mənim ixtisasıma uyğun vakansiya olmayacağından narahatam | 87 | 39 | 78 | 59 | 75 | 2,99 |
| Q12 | Müəllim kimi fəaliyyətə başladıqda peşəmlə qürur duyacağam | 19 | 12 | 69 | 76 | 162 | 4,04 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Q13 | Müəllim kimi fəaliyyətə başladıqda maddi ehtiyaclarım azalacaq | 90 | 50 | 113 | 52 | 33 | 2,67 |
| Q14 | Müəllim kimi fəaliyyətə başladıqda təsir imkanlarım daha çox olacaq | 31 | 24 | 114 | 93 | 76 | 3,47 |
| Q15 | Müəllim kimi fəaliyyət karyera imkanlarımı genişləndirəcək | 49 | 40 | 93 | 70 | 86 | 3,31 |
| | ***Müəllim peşəsi üçün özünə inam ~ 3,47*** | | | | | | |
| Q4 | MİQ imtahanı ilə bağlı narahat olmuram | 73 | 34 | 81 | 53 | 97 | 3,20 |
| Q5 | Özümü müəllim peşəsi üçün hazır hiss edirəm | 52 | 30 | 84 | 67 | 105 | 3,42 |
| Q7 | Müəllim kimi işləsəm şagirdlərlə dil tapa biləcəyəm | 60 | 17 | 34 | 54 | 173 | 3,78 |

Üç alt qrup üzrə orta göstəricilər gələcək müəllimlərin münasibəti və gözləntiləri haqqında mühüm fikir verir:

- *Müəllimlik peşəsinə münasibət (4.43).* Bu yüksək bal, respondentlərin ümumiyyətlə müəllimlik peşəsinə münasibətinin müsbət olduğunu göstərir. Onlar mümkün çətinliklərə və çatışmazlıqlara baxmayaraq, bu peşəni mənalı və vacib görürlər. Tələbələr gələcək peşələrinin vacibliyini görürlər və çox güman ki, təhsil sahəsində işləməyə həvəslənirlər. Bu, müsbət siqnaldır, çünki peşəyə münasibət peşəkar uğur və iş məmnuniyyətində mühüm rol oynayır.
- *Müəllimlik karyerası ilə bağlı gözləntilər (3.21).* Orta diapazonun sonuna yaxın göstərici tələbələrin gələcək karyeraları ilə bağlı orta səviyyədə gözləntiləri olduğunu göstərir. Onlar müəllim peşəsinin əhəmiyyətini dərk edə bilər, lakin karyera yüksəlişi və maliyyə ilə bağlı çətinliklərdən və məhdud imkanlardan xəbərdardırlar. Karyera ilə bağlı gözləntilərin səviyyəsi tələbələrin yanaşmalarında realist olduqlarını göstərir. Onlar həm müsbət cəhətləri, həm də aşağı əmək haqqı və ya karyera imkanlarının olmaması kimi çətinlikləri dərk edə bilərlər. Bu anlayış

onlara karyera üçün daha yaxşı hazırlaşmağa və potensial çətinliklərin öhdəsindən gəlmək üçün strategiyalar hazırlamağa kömək edə bilər.

– *Müəllimlik peşəsi üçün özünə inam (3.47).* Bu nəticə orta gözlənti diapazonundadır və tələbələrin öz tədris bacarıqlarına inamının orta səviyyəsini göstərir. Respondentlər çox güman ki, öz əsas bacarıqlarına güvənirlər, lakin gələcək peşəkar inkişafa və dəstəyə ehtiyac hiss edə bilərlər. Müəllimlik qabiliyyətlərinə inam səviyyəsi tələbələrin əsas bacarıqlarına inamının olduğunu göstərir, lakin əlavə təlim və dəstəyə ehtiyac hiss edə bilər. Bu, gələcək müəllimlərin inamını artırmaq üçün təhsil müəssisələrinin əlavə hazırlığı və peşəkar inkişafı üçün imkanlar açır.

Orta balların təhlili göstərir ki, kişi təhsilli tələbələr müəllimlik peşəsinə müsbət münasibət bəsləyirlər, eyni zamanda onların karyeralarında qarşılaşa biləcəkləri real çətinliklər və məhdudiyyətlərdən xəbərdardırlar. Onların müəllimlik qabiliyyətlərinə orta inam gələcək müəllimlərə öz peşələrinin tələblərinin öhdəsindən uğurla gəlmək üçün dəstək və peşəkar inkişaf ehtiyacını vurğulayır.

**Müəllim peşəsinə münasibət**

